Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

1-3 FEVRAL 2020-ci il

№ 18 (4149)

Qiyməti 40 qəpik

www.baki-xeber.com

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# CENEVRƏDƏ AZƏRBAYCANIN DİQTƏ EDƏN TƏRƏF OLDUĞUNU ERMƏNİSTANDA DA ETİRAF EDİRLƏR...

■ səh. 9 ■




■ səh. 8 ■

## Azərbaycan Ermənistanın İranla Şimal-Cənub magistral yol layihəsinə son zərbəni vuracaq, Tehran-Mazandaran yolu...

MQ həmsədrlərinin Cenevrə bəyanatında iki düşündürücü məqam - tənzimləmədə məxfilik və xalqları sülhə hazırlamaq birlikdə mümkündürmü... ■ səh. 6 ■

Həmsədrlər Cenevrədən əvvəl Paşinyanın özfəaliyyətini burnundan tökdülər... ■ səh. 3 ■

Rusiyanın bir "hə"si və Türkiyənin Qarabağ problemini həll etməsi... ■ səh. 9 ■

Makrondan Fransanın tərəfsiz vasitəçiliyinə kölgə salan bəyanat - "Biz Ermənistanın yanında olmağa borcluyuq" ■ səh. 3 ■

Qondarma rejim Dağlıq Qarabağın su ehtiyatlarını ekoloji fəlakət həddində istismar edir ■ səh. 7 ■

Braziliya dünya neft bazarında Azərbaycanın da təsir etdiyi qiymət sabitliyini pozmağı hədəflədi... ■ səh. 10 ■

Paşinyanın ən qorxulu rəqiblərindən biri də Avrasiya İttifaqından İrəvana qayıdır ■ səh. 11 ■

Təhlükəli "Çin virusu" Bakıya da çatdı... ■ səh. 12 ■

"Çin" virusu "Sədərək" bazarını da çökdürdü... ■ səh. 13 ■



AŞPA-nın Azərbaycanda «siyasi məhbuslar» qətnaməsinin arxasındakı görünməyən anti-Azərbaycan motivləri... ■ səh. 2 ■

Dünya yəhudilərindən yarımçıq ittiham - Ukrayna və Polşa faşizmi əbədiləşdirməyə görə ittiham edilir, Ermənistan yox... ■ səh. 7 ■



Bakı Tekstil Fabriki Bakı Tikiş Evinin məktəbli forma monopoliyası ilə mübarizəyə başladı... ■ səh. 12 ■

■ səh. 5 ■ Əhliman Əmiraslanovun Köhünlü, Şuşün və Qaramahmudlu seçiciləri ilə də görüşü konkret nəticələrlə bitdi - "səs verəcəyik"



■ səh. 5 ■ Veteran təşkilatları və ictimai birliklər Siyavuş Novruzovla bağlı 5 saylı Şahbuz-Babək seçicilərinə çağırış etdi



■ səh. 2 ■ Vüqar Rəhimzadə 9 fevral seçkilərinə daxili və beynəlxalq marağın səbəblərini izah etdi



■ səh. 8 ■ Sabiq Ermənistan prezidenti Köçəryan Azərbaycan həbsxanasından necə və nə vaxt qaçdı...



■ səh. 14 ■ Bir qrup fəlsəfə doktoru ilə Ali Attestasiya Komissiyasının arasında nə baş verir...



## Vüqar Rəhimzadə 9 fevral seçkilərinə daxili və beynəlxalq marağın səbəblərini izah etdi

*"...özlərini demokratiyanın beşiyi adlandıran ölkələrdə belə..."*

**"Bu gün ölkəmiz çox mühüm siyasi kampaniya - parlament seçkiləri ərəfəsindədir. Hazırda deputatlığa namizədlərin təbliğat-təşviqat prosesi gedir. Özü də kifayət qədər yüksək əhval-ruhiyyə və fəal şəkildə. Təxminən 40-dan çox KİV ödənişli təşviqatda iştirak etmək üçün MSK-ya müraciət edib. Namizədlər bu KİV-lər, xüsusilə sosial şəbəkələr vasitəsilə öz təbliğatlarını qurur, qanunvericiliyin onlara verdiyi imkanlardan maksimum səviyyədə yararlanmağa çalışırlar. Hesab edirəm ki, bu, ölkədəki aktiv siyasi mühitin, eyni zamanda, seçkilərə olan marağın göstəricisidir".**



Bu fikirləri KİV-ə açıqlamasında YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə söyləyib. V.Rəhimzadə Milli Məclisə keçirilən seçkilərdə iştirak edən bəzi müxalifət partiyalarının qərəzli iddialarına münasibət bildirib. Qeyd edib ki, guya seçicilərlə görüşlərin təşkilində hansısa pozuntulara yol verilir, seçicilər ələ alınır və s. bu kimi iddialar irəli sürülür: "Sözsüz ki, bu gün dünyanın heç bir ölkəsində, hətta özlərini "demokratiyanın beşiyi" adlandıran dövlətlərdə belə "ideal seçki" deyilən bir şey yoxdur. Təbii ki, ölkəmizdə keçirilən siyasi kampaniya ərəfəsində hansısa kiçik nöqsanlara rast gəlmək ehtimalı ola bilər. Ancaq bunlar ciddi və kütləvi pozuntular deyil və seçki prosesinə təsir etmir. Seçkilərdə iştirak üçün 2431 nəfər müraciət edib, onlardan 1374 nəfəri qeydə alınıb. Bu namizədlərin arasında qızğın mübarizə gedir. Bəzən bu mübarizə zamanı hansısa çatışmazlıqlar müşahidə edirik. Lakin dövlət öz üzərinə düşən işi yüksək səviyyədə yerinə yetirir və bütün namizədlərə bərabər imkanlar yaradılır".

"İki sahil" qəzetinin baş redaktoru əlavə edib ki, hazırda beynəlxalq aləmdə də Azərbaycanda keçirilən parlament seçkilərinə maraq böyükdür: "Bildiyimiz kimi, seçkiləri izləmək üçün 50-dən artıq ölkəni təmsil edən 694 beynəlxalq müşahidəçi akkreditasiyadan keçib. Qeydiyyatdan keçən yerli müşahidəçilərin sayı isə 61813 nəfərə çatıb. Sözsüz ki, bu göstəricilər seçkilərə beynəlxalq birliyin, eləcə də ölkə daxilindəki insanların yüksək marağının, diqqətinin göstəricisidir. Şübhəsiz ki, bütün siyasi kampaniyalar kimi, budəfəki parlament seçkiləri də kifayət qədər demokratik, şəffaf şəkildə keçiriləcək və bu məqamlar beynəlxalq təşkilatların hesabatlarında öz əksini tapacaq".

Vüqar Rəhimzadə vurğulayıb ki, bəzi müxalifət nümayəndələrinin təbliğat-təşviqat prosesi ilə bağlı neqativ, qərəzli fikirləri real faktlara söykənmir və obyektivlikdən uzaqdır: "Bu gün YAP-ın namizədləri ilə yanaşı, cəmiyyət arasında nüfuzu olan şəxslər də bitərəf olaraq seçkilərə qatılıblar və fəal təbliğat kampaniyası həyata keçirir, seçicilərlə görüşür, platformaları barədə məlumat verirlər. Lakin heç bir sosial bazası, insanlar arasında nüfuzu olmayan bəzi müxalifət partiyalarının namizədləri ənənəvi olaraq qərəzli iddialar səsləndirir, onsuz da məğlub olacaqlarını bilərək sığortalanmağa çalışırlar. Lakin bütün bunlar əbəsdir. Çünki sadə insanlar, seçicilər real fəaliyyətə, onların problemləri ilə maraqlanan və həllinə çalışan namizədlərə səs verirlər. Bu mənada hesab edirəm ki, təbliğat kampaniyası yüksək fəallıq, sağlam rəqabət şəraitində keçir və hər kəsə bərabər imkanlar yaradılır".

## Azərbaycanın strateji valyuta ehtiyatları 52 milyard dolları ötdü

**2020-ci ilin yanvar ayında Azərbaycanın strateji valyuta ehtiyatları 2%-dək artıb. Bu barədə Azərbaycan Mərkəzi Bankının (AMB) İdarə Heyətinin sədri Elman Rüstəmov məlumat verib.**

"İlin əvvəlindən Azərbaycanın strateji valyuta ehtiyatları 2%-dək artıb və artıq 52 milyard dolları keçib", - deyə o, yanvarın 31-də keçirdiyi mətbuat konfransında bildirib.

E.Rüstəmov əlavə edib ki, cari ilin yanvar ayı ərzində Azərbaycan Dövlət Neft Fondu və AMB-nin valyuta ehtiyatları 1 milyard dollardan çox artıb.

2019-cu ilin sonuna olan vəziyyətə görə, respublikanın strateji valyuta ehtiyatları 50,9 milyard dollar təşkil edib.

**"Xatirə kitabı" redaksiyasının baş redaktoru Nəzakət Məmmədova Mətbuat Şurasının sədri Əflatun Amaşova qaynatası Qasım Qasımovun vəfatı ilə əlaqədar üz vermiş kədərə qəlbən şərik olduğunu bildirir və dərin hüznlə başsağlığı verir.**
**Allah rəhmət eləsin!**

**Yanvarın 30-da Avropa Şurası Parlament Assambleyası (AŞPA) "Azərbaycanda siyasi məhbuslarla bağlı məlumatlar haqqında iş" üzrə qətnaməni qəbul edib. Müzakirələr zamanı deputatların əksəriyyəti sözügedən bədnam hesabatı dəstəkləyib.**

# AŞPA-nın Azərbaycanda "siyasi məhbuslar" qətnaməsinin arxasındakı görünməyən anti-Azərbaycan motivləri...

## Azər Həsrət: "Müəyyən dairələr hər vasitə ilə Azərbaycanı gözdən salmaq istəyirlər"

Qətnamə layihəsi Azərbaycanda siyasi məhbuslar üzrə məruzəçi, İslandiyadan olan deputat Torhildur Sunna Evarsdottirin hesabatı əsasında hazırlanıb. Əsasən fransalı millət vəkili Bernard Furnye canfəşanlıq edib. İddia edib ki, guya Azərbaycan Avropa İnsan Hüquqları Məhkəməsinin (AİHM) qərarlarını icra etmir. Guya hüquq müdafiəçilərinin, fəalların fəaliyyəti bəzən onların həbsxanalara düşməsinə səbəb olur. Bununla belə, Furnye cəza və məhkəmə-hüquq sistemində islahatlarla bağlı Azərbaycan Prezidentinin fərmanlarını yüksək qiymətləndirib. Ancaq o bu tədbirləri yetərli saymayıb.

Öz növbəsində, Azərbaycan nümayəndə heyətinin üzvləri hesabatın müddəaları ilə qəti şəkildə razılaşmayaraq buna öz etirazlarını bildiriblər. Sahibə Qafarova məruzədə cinayət əməllərinə görə mühakimə olunan dini radikalların siyasi məhbus kimi təqdim edilməsinin düzgün olmadığını deyib. Digər azərbaycanlı deputatlar da tənqidi qəbul etməyərək Azərbaycanın AŞ ilə əməkdaşlığa sadiq olduğunu qeyd ediblər. Eyni zamanda, demokratiya quruculuğunda obyektiv çətinlikləri və keçmişin ağır irsini qeyd ediblər. Rusiya, Türkiyə və bir sıra digər ölkələrin bəzi deputatları Azərbaycan nümayəndə heyətini dəstəkləyiblər.




*"AŞPA-nın məlum bədnam və qərəzli qətnaməsi də məhz bu qəbildəndir"*

Göründüyü kimi, AŞPA Azərbaycana qarşı növbəti dəfə qərəzli mövqedən çıxış edərək bu cür əsası olmayan qətnamə qəbul edib. Bu bir daha qurumun Azərbaycana qarşı qərəzli mövqedən çıxış etdiyini sübut edir.

Məsələyə münasibət bildirən ekspert Azər Həsrətin fikrincə, AŞPA-nın belə qərəzli qətnamə qəbul edəcəyi gözlənilən idi: "Çünki bütün vasitələrlə müəyyən dairələr buna çalışırdılar. Ötən il Varşavada ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun illik toplantısında iştirak etdim. Həmin toplantıda ABŞ-ın dövlət nümayəndəsi öz çıxışında Azərbaycandakı "siyasi məhbuslardan" danışdı. Konkret olaraq ad çəkərək bildirdi ki, filan şəxs siyasi motivlərə görə həbs edilib. Hansı ki, həmin şəxs Azərbaycanda silahlı radikal dini qruplaşma yaratmaqda şübhəli bilinərək həbs edilib. Bu məni çox təəccübləndirdi və etiraz edib bildirdim ki, ABŞ niyə silahlı dini qruplaşma yaradan şəxsin həbsindən belə narahatdır. Hesab edirəm ki, ABŞ kimi AŞPA da sadəcə olaraq bəhanə axtarır. Müəyyən dairələr hər vasitə ilə Azərbaycanı gözdən salmaq istəyirlər. AŞPA-nın məlum bədnam və qərəzli qətnaməsi də məhz bu qəbildəndir. Onlar üçün fərqi yoxdur, Azərbaycanda ən ideal şərait olsa belə, mütləq bir bəhanə tapacaqlar. Bu da səbəbsiz deyil. Məsələ ondadır ki, Azərbaycanın müstəqil siyasət yeritməsi onları qane etmir. Qonşu Ermənistandan fərqli olaraq, dövlətimiz heç bir ölkənin vassalı deyil. Özünün müstəqil siyasəti var. Bu da Avropadakı qurumların xoşuna gəlmir. Ona görə də əllərinə bəhanə düşən kimi Azərbaycanın üstünə gedirlər. Fikrimcə, biz öz yolumuzla getməliyik və belə şeylərə əhəmiyyət verməməliyik".

***Vidadi ORDAHALLI***

# ABŞ-ın Azərbaycandakı səfirliyi Cenevrədə son Qarabağ görüşünə xüsusi rəy bildirdi

**ABŞ Ermənistan - Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə yardım etməyə sadiq olaraq qalır.**

"ATƏT-in Minsk Qrupunun həmsədrləri Cenevrədə Azərbaycan və Ermənistanın xarici işlər nazirləri ilə görüşdülər. ABŞ Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə yardım etmək üçün qətiyyətli olaraq qalır", - deyə ABŞ-ın Azərbaycandakı səfirliyinin "Twitter" səhifəsində dərc olunmuş məlumatda bildirilir.



Tərəflər konstruktiv və substantiv danışıqlar üçün bir araya gələndə biz bundan həmişə çox şad oluruq. "Trend"in məlumatına görə, bunu isə ABŞ-ın ölkəmizdəki səfiri Örl Litzenberqer Ermənistan və Azərbaycan Xarici işlər nazirlərinin görüşünə münasibət bildirərkən deyib.

Səfir bildirib: "Ümid edirəm ki, danışıqlardan dərhal sonra bizim verdiyimiz bəyanatı da görmüsünüz. Bir daha deyirəm ki, danışıqların davam etdirilməsinə ümid edirik".

**Erməni mediası yazır ki, Ermənistanın Baş naziri Nikol Paşinyanın Qarabağ münaqişəsinin nizamlanması üzrə keçirdiyi mətbuat konfransı zamanı səsləndirdiyi fikirlər və mətbuatda yer almış sitatları ATƏT-in Minsk Qrupu həmsədrlərinin ciddi narahatlığına səbəb olub.**

*"Çünki belə açıqlamalar müharibə risqini artırır"*

# Həmsədrlər Cenevrədən əvvəl Paşinyanın özfəaliyyətini burnundan tökdülər...

Məlumata görə, vasitəçilər Paşinyanın bu addımını Minsk Qrupunun strategiyasına açıq-aşkar zidd olmaqla, növbəti özfəaliyyətinin təzahürü kimi qiymətləndiriblər. Bu səbəbdən yanvarın 29-da Cenevrədə həmsədrlər Mnatsakanyanla Paşinyanın Qarabağa dair səsləndirdiyi fikirlərlə bağlı kifayət qədər sərt söhbət ediblər. Bununla bağlı öz iradlarını bildiriblər.

Məlumat üçün qeyd edək ki, Paşinyan həmin mətbuat konfransında Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı sənəddə Füzuli, Ağdam, Zəngilan, Qubadlı, Cəbrayıl, Kəlbəcər və Laçın rayonlarının Azərbaycana qaytarılmasının nəzərdə tutulduğunu deyib. Ancaq onun sözlərinə görə, Qarabağla Ermənistan arasında dəhlizin olması da şərt kimi sazişə daxil idi. Paşinyan çıxışında Qarabağ ətrafındakı 5 rayondan erməni birləşmələrinin çıxmasından sonra bölgəyə beynəlxalq sülhməramlıların yerləşdirilməsini və bundan sonra azərbaycanlıların öz yurdlarına qayıtmalı olduğunu xatırladıb: "Amma sülhməramlılar Laçın və Kəlbəcər rayonlarında yerləşməli deyildi. Kəlbəcər ATƏT-in müvəqqəti monitorinqi altında qalmalı idi. Digər müddəa Dağlıq Qarabağın yekun statusunun müəyyənləşməsinə qədər keçid status almasında idi. Yayılan məlumatlarda bu sənədlərdən söhbət gedir".

Belə görünür ki, Paşinyanın danışıqların ümumi detalları ilə bağlı səsləndirdiyi məqamlar həmsədrləri narazı salıb. Bu səbəbdən, bir növ, Mnatsakanyan vasitəsilə Paşinyan həmsədrlər tərəfindən tənbeh edilib.

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd Əsədullazadə hesab edir ki, bununla bağlı iradların Mnatsakanyanın diqqətinə çatdırılması gözlənilən idi: "Çünki Paşinyanın Qarabağ münaqişəsinin nizamlanmasına zərbə vuran açıqlamaları Minsk Qrupunun fəaliyyətinə kölgə salmaqdır. Dəfələrlə Ermənistan Baş naziri danışıqların məzmununa zidd olan açıqlamalar verib. Ona görə də həmsədrlərin vasitəçiliyi ilə Ceneverdə Azərbaycan və Ermənistan Xarici İşlər nazirlərinin görüşündə bu məsələ irad formasında Mnatsakanyanın diqqətinə çatdırılıb. Çünki belə açıqlamalar müharibə risqini artırır. Həmsədrlər də müharibənin alovlanmasında maraqlı deyillər. O üzdən, iki gün davam edən danışıqlar, digər danışıqlardan fərqli olaraq, Ermənistan üçün daha gərgin olub. Çünki rəsmi İrəvanın tutduğu kurs, bütövlükdə, danışıqlar üçün bütün mümkün vasitələrin üzərindən xətt çəkir. Ona görə də həmsədrlər çalışırlar ki, öz işlərinə xələl gətirən Paşinyanın qeyri-ciddi açıqlamalarının qarşısını alsınlar.

*Məhəmməd Əsədullazadə: "Həmsədrlər çalışırlar ki, bundan sonra Paşinyan açıqlamalarında diqqətli olsun"*




O üzdən, Cenevrədə bu istiqamətdə çox gərgin danışıqlar olub. Rəsmi Bakı kifayət qədər aydın və ardıcıl siyasət ortaya qoyur. Dalan vəziyyətə düşən Ermənistan hakimiyyətidir. Minsk Qrupunun fəaliyyəti İrəvanın destruktiv fəaliyyətinə görə, demək olar ki, deqradasiyaya məruz qalıb. Həmsədrlər çalışırlar ki, bundan sonra Paşinyan açıqlamalarında diqqətli olsun. Cenevrə danışıqları nəticəsinin bir müddət sonra Ermənistanın davranışlarında nə kimi rol alması aydın olacaq".

***Vidadi ORDAHALLI***

**Fransa Prezidenti iştirak etdiyi tədbirdə olduqca təzadlı bir mövqe ortaya qoyub. Emmanuel Makron Fransa Erməni Təşkilatlarının Koordinasiya Mərkəzində (CCAF) təşkil olunan mərasimdə deyib ki, Fransada Dağlıq Qarabağla bağlı proqramlar həyata keçirilə bilər və bunun da yolları var.**

# Makrondan Fransanın tərəfsiz vasitəçiliyinə kölgə salan bəyanat - "Biz Ermənistanın yanında olmağa borcluyuq"




Makron çıxışında bildirib ki, Fransanın inzibati vahidləri tanınmamış ərazilərlə, eləcə də Qarabağdakı rejimlə qanuni münasibət qura bilməz: "Mən sizi aldadıb deyə bilərəm ki, istədiyiniz qurumla sənəd imzalaya bilərsiniz. Ancaq mən sözlərimə görə cavabdehəm. Buna görə də sizinlə vicdanlı olmalıyam. Fransada bir neçə paralel diplomatiya ola bilməz. Bu, qanuni olaraq mümkün deyil. Diplomatiya yalnız vahid şəkildə ola bilər. Və bu mövzuda dürüst olmaq, sizin qarşınızda ikiüzlü olmaqdan daha yaxşıdır. Buna görə şəhər rəhbərliyi öz qərarlarını verir, məhkəmələr də öz qərarlarını çıxarır".

Fransa Prezidentinin sözlərinə görə, qeyd olunan məsələ nəinki Qarabağda, dünyanın başqa yerlərində də tanınmayan ərazilərə aiddir.

Xatırladaq ki, bir müddət əvvəl Fransa məhkəmələri bu ölkənin bəzi kommuna və şəhərləri ilə Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ bölgəsindəki qondarma rejimlə imzalanmış bir neçə "dostluq xartiyası"nı ləğv edib. Makron çıxışında açıq şəkildə Fransanın inzibati vahidlərini Qarabağ separatçıları ilə əlaqə qurmamağa çağırıb.

Ancaq Ermənistan KİV-i Makronun birmənalı şəkildə Ermənistanı müdafiə etdiyinə dair fikirlərinə də yer veriblər. Makron bildirib ki, Fransa Ermənistanın yanında olmağa, sadəcə, borcludur: "Biz çoxminillik bir millətin çox gənc bir dövlətinin gücü sayəsində yaradılan demokratiya və inqilabın sayəsində qazanılan uğurları nəzərə alaraq bunu etməliyik".

Daha sonra Fransa Prezidenti həm Ermənistan Baş naziri, həm də Azərbaycan Prezidenti ilə təmasda olduğunu qeyd edərək, tərəflər arasında mövcud müntəzəm əlaqələrin gərginliyi azaltmaq baxımından mühüm amil olduğunu diqqətə çatdırıb: "Dağlıq Qarabağ münaqişəsinin həll olunmaması Avropada təhlükəsizlik və etimad sisteminin bərqərar edilməsi yolunda əngəldir".

Göründüyü kimi, Fransa Prezidenti Ermənistana dəstəyin Fransanın şərəfli borcu olduğunu deyir. Bununla da Fransanın münaqişənin həllində olan vasitəçilik missiyasında tutmalı olduğu neytrallığa kölgə salmış olur.

Azərbaycan Sosialist Partiyasının sədri Elşən Həsənov da qəzetimizə bildirdi ki, Makronun bu tip çıxışı ATƏT-in Minsk Qrupunun həmsədri olan ölkəyə yaraşmır: "Biz başa düşürük ki, Fransada güclü erməni lobbisi var və Makron çıxışını həmin auditoriyanın qarşısında edib. Bu heç də o anlama gəlmir ki, Makron ölkəsinin neytrallığına kölgə salan mövqe ortaya qoymalıdır. Ermənistanla Azərbaycan arasında neytral qalmaq Fransa və digər həmsədr ölkələrin borcudur. Çünki onlar üzərlərinə missiya götürüblər. Tərəflərdən hansınasa açıq dəstək ifadə etmək onlar üçün yolverilməzdir. Belədirsə, onda tutduqları missiyadan istefa versinlər. Ancaq bir faktı da qeyd edim ki, həmin tədbirdə Makron qanunsuz subyektlərlə bağlı obyektiv mövqe ortaya qoyub. Bildirib ki, Fransa əyalətləri işğal altındakı ərazilərdəki subyektlərlə ikitərəfli əlaqə qura bilməzlər. Bu həm də qanunun tələbidir və Makron ona istinad edib. Belə obyektiv mövqenin ardınca, Ermənistana hədsiz sevgi elan etmək Makronun öz obyektivliyinə şübhə salmış olur".

***Məhəmmədəli QƏRİBLİ***

# Ehsan Zahidovun, Eldar Sultanovun, Elşad Hacıyevin adları ən çox çəkilənlər sırasında oldu...

**2019-cu il ölkədə bir çox hadisələrlə yadda qaldı. İctimai-siyasi vəziyyət, iqtisadiyyatın dinamik inkişafı və bir çox hadisələr baş verdi. Bu hadisələri ictimaiyyətə çatdırmaq üçün çalışan media nümayəndələri ötən il hansı çətinliklərlə üzləşib?**







Bir sıra aparıcı media orqanlarının əməkdaşları ilə bu barədə sorğu keçirilib.

APA İnformasiya Agentliyinin əməkdaşı Səlcuq Elçin ötən il bir çox qurumların mətbuat xidmətinin rəhbəri və əməkdaşının fəaliyyətində müsbətə doğru irəliləyiş olduğunu bildirir:

"İstər yola saldığımız 2019-cu ildə, istərsə də ondan əvvəl Baş Prokurorluğun mətbuat xidmətinin bütün əməkdaşları media ilə yüksək səviyyədə əməkdaşlıq edib:"Mətbuat xidmətinin rəhbəri Eldar Sultanov, xidmətin böyük prokuroru Kənan Zeynalov media ilə əməkdaşlığa səfərbər olublar. Bir sözlə, bu qurumun mətbuat xidmətində çalışanlar mətbuatla əməkdaşlıq etməklə medianın dostu adını qazanıblar. Tam səmimi deyə bilərəm ki, Baş Prokurorluğun mətbuat xidməti bəzi dövlət orqanlarının mətbuat xidmətlərinə nümunə sayıla bilər.

Baş Prokurorluqla yanaşı, Bakı şəhər Baş Polis İdarəsinin Mətbuat xidmətinin rəisi, polis mayoru Elşad Hacıyevin fəaliyyətiuni yüksək qiymətləndirirəm. Xidmət rəisi operativ çalışır, sorğuları, hadisələrlə bağlı müraciətlərimizə tez bir zamanda cavab verir".

Axar.az saytının əməkdaşı Turanə Məmmədli də ötən il bir çox dövlət qurumunun mətbuat xidmətinin fəaliyyətini yüksək qiymətləndirir: "Daxili İşlər Nazirliyi mətbuat xidməti, BŞPİ-nin mətbuat xidmətinin rəisi, polis mayoru Elşad Hacıyev, Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov, xidmətin böyük prokuroru Kənan Zeynalov, Bakı şəhər Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr bölməsinin rəisi, polkovnik Vaqif Əsədov, Ədliyyə Nazirliyi Penitensiar Xidmətin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi Mehman Sadıqov, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin mətbuat xidmətinin rəhbəri Anar Nəcəfli, Azərsu ASC-nin mətbuat xidmətinin rəhbəri Anar Cəbrayıllı, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi QSC-nin (AXDG) mətbuat katibi Mehman Mehdiyev ötən il jurnalistlərlə ən operativ işləyən şəxslərdir.

Oxu.az saytının əməkdaşı Könül Cəfərli ötən il əksər qurumların mətbuat xidməti ilə normal əməkdaşlıq etdiyini bildirib: "Ötən il demək olar ki əksər qurumların mətbuat xidmətləri normal işləyib, suallarmıza cavab verib. Əsasən isə Baş Prokurorluğun Mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri İradə İbrahimova, Vergilər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Şahin Məmmədov, Azərbaycan Dəmir Yolları Qapalı Səhmdar Cəmiyyətinin mətbuat xidmətinin rəhbəri Natəvan Bayramova, "Azərişıq" ASC-nin mətbuat xidmətinin rəhbəri Tanrıverdi Mustafayev, "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin mətbuat xidmətinin rəhbəri Bəxtiyar Məmmədov, "Azərsu" ASC-nin mətbuat xidmətinin rəhbəri Anar Cəbrayıllı, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin mətbuat xidmətinin rəhbəri Anar Nəcəfli, Qida Təhlükəsizliyi Agentliyinin mətbuat katibi Aysel Fərziyeva, Bakı şəhər Baş Polis idarəsinin Mətbuat xidmətinin rəisi, polis mayoru Elşad Hacıyev, Dövlət Sərhəd Xidmətinin rəhbəri Rövşən Cahangirov və Səhiyyə Nazirliyinin mətbuat xidmətinin əməkdaşı Elvin Hacıyev ötən il operativ fəaliyyətləri ilə seçiliblər".

Daimi əlaqə saxladığı mətbuat xidmətləri arasında Baş Prokurorluğun mətbuat xidmətini xüsusi qeyd edən Publika.az saytının əməkdaşı Nizam Rzayev bildirib ki, adıçəkilən xidmətin rəhbəri Eldar Sultanov və böyük prokuror Kənan Zeynalov sorğulara daim diqqətlə yanaşır və qısa vaxtda bütün mətbuat üçün olsa da belə cavablandırılır: "Həmçinin Daxili İşlər Nazirliyinin mətbuatla çoxşaxəli ünsiyyətini alqışlayıram. Nazirliyin mətbuat xidmətinin regional nümayəndəliklərinin, eləcə də baş idarələrin bir çoxunun ayrıca mətbuatla əlaqədə olan əməkdaşlarının olması təqdirəlayiqdir".

Baku.ws saytının əməkdaşı Ziya Babayev də 2019-cu ildə bir çox mətbuat xidmətinin jurnalistlərlə yüksək səviyyədə işlədiyini etiraf edib: "Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin rəisi, polis polkovniki Ehsan Zahidov, Bakı şəhər Baş Polis İdarəsinin mətbuzat xidmətinin rəisi,polis mayoru Elşad Hacıyev, Bakı şəhər İcra Hakimiyyətinin ictimaiyyətlə əlaqə şöbəsinin rəhbəri İsrafil Kərimov, Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin mətbuat katibi Nuridə Allahyarova, TƏBİB-in ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Rəvanə Əliyeva, Səhiyyə Nazirliyinin mətbuat xidmətinin əməkdaşı Elvin Hacıyev, "İçərişəhər" Dövlət Qoruğunun mətbuat katibi Səfayə Əhmədova, Vergilər Nazirliyinin mətbuat katibi Şahin Məmmədov, Dövlət Gömrük Komitəsinin mətbuat xidmətinin rəhbəri Natiq Axundov və xidmətin əməkdaşı Şahin Rzayev, "Azərsu" ASC-nin mətbuat katibi Anar Cəbrayıllı, "Bakı Metropoliteni QSC-nin mətbuat xidmətinin rəhbəri Bəxtiyar Məmmədov, Bakı şəhər Dövlət Yol Polis İdarəsinin mətbuat xidmətinin rəhbəri Vaqif Əsədov, Baş Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis polkovniki Kamran Əliyev, Fövqəlade Hallar Nazirliyinin İctimaiyyətlə əlaqələr idarəsinin rəisi Gülçin Mehdiyeva, "Azərişıq" ASC-nin mətbuat xidmətinin rəhbəri Tanrıverdi Mustafayev, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri İradə İbrahimova, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin mətbuat katibi Anar Nəcəfli, Energetika Nazirliyinin mətbuat katibi Zəminə Əliyeva, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidmətinin rəhbəri Fazil Talıblı, Gənclər və İdman Nazirliyinin mətbuat katibi Səmayə Məmmədova ötən il ən yaxşı çalışanlardandır. Ötən il Baş Prokurorluğun Mətbuat Xidməti ilə daha sıx əməkdaşlıq etmişəm. Xidmət rəhbəri Eldar Sultanov və xidmətin böyük prokuroru Kənan Zeynalov mənimlə çox operativ əməkdaşlıq edib".

Report İnformasiya Agentliyinin əməkdaşı İsmayıl Nəsibli də bir sıra qurumlarla normal əlaqə yarada bilib: "Mənim fikrimcə, Bakı Şəhər Baş Polis İdarəsinin Mətbuat Xidmətinin rəisi, polis mayoru Elşad Hacıyev, Baş Prokurorluğun Mətbuat Xidmətinin rəhbəri Eldar Sultanov, xidmətin böyük prokuroru Kənan Zeynalov, Baş Dövlət Yol Polisi İdarəsinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi Kamran Əliyev ən yaxşılardandır. Mənim nə zaman onlara sualım olub, həmin şəxslərdan cavab ala bilmişəm. Bundan başqa, Fövqəladə Hallar Nazirliyinin Mətbuat Xidmətinin rəisi Gülçin Mehdiyeva, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Mətbuat Xidmətinin rəhbəri İradə İbrahimova, Respublika Hərbi Prokurorluğunun mətbuat xidmətinin rəhbəri Firad Əliyev, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin Mətbuat Xidmətinin rəhbəri Bəşarət Məmmədov, Nazirlər Kabinetinin Mətbuat Xidmətinin rəhbəri İbrahim Məmmədov, Mərkəzi Seçki Komissiyasının media və ictimai əlaqələr şöbəsinin müdiri Şahin Əsədli, Xarici İşlər Nazirliyinin Mətbuat Xidməti idarəsinin rəisi Leyla Abdullayeva və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin İnformasiya və analitik araşdırmalar şöbəsinin müdiri Elgün Səfərov da jurnalistlərin suallarına, sorğularına çox vaxt cavab verirlər. Onların fəaliyyətini müsbət qiymətləndirirəm".

Ümumilikdə rəyi soruşulanlardan belə qənaətə gəlmək olar ki, ötən il media qurumları ilə ən yaxşı işləyən Baş Prokurorluğun Mətbuat xidməti olub. Siyahıda ikinci yeri Bakı şəhər Baş Polis İdarəsinin, üçüncü yeri isə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidmətinin rəhbərləri tutub.

# Əhliman Əmiraslanovun Köhünlü, Şüşün və Qaramahmudlu seçiciləri ilə də görüşü konkret nəticələrlə bitdi - "səs verəcəyik"

**65 saylı Saatlı-Sabirabad-Kürdəmir seçki dairəsindən deputatlığa namizəd, akademik Əhliman Əmiraslanovun seçicilərlə silsilə görüşləri davam edir. Növbəti görüş Kürdəmir rayonunun Köhünlü kəndində baş tutub.**

Görüşdə deputatlığa namizəd akademik Əhliman Əmiraslanov Prezident İlham Əliyevin həyata keçirdiyi dərin məzmunlu islahatlar haqqında ətraflı məlumat verib. O qeyd edib ki, bu islahatlar ölkəmizin inkişafına böyük təkan verməklə yanaşı, insanların sosial rifahının daha da yüksəlməsinə xidmət edir. Deputatlığa namizədin sözlərinə görə, aparılan sosial-iqtisadi islahatlar ciddi nəticələr verməkdədir, vətəndaşlar islahatların nəticələrini öz həyatlarında hiss edirlər. Əhliman Əmiraslanov, həmçinin, YAP-ın seçki proqramı haqqında seçicilərə ətraflı məlumat verib, daha güclü Azərbaycan naminə qarşıda duran vəzifələrdən bəhs edib. Qeyd olunub ki, seçki proqramında ölkəmizin daha da inkişafı, xüsusilə əhalinin rifah halının yüksəldilməsi istiqamətində müddəalar əksini tapır.

Görüş zamanı sakinlərin problemləri, şikayət və təklifləri dinlənib. Seçicilər bir sıra sosial, kommunal məsələlərin həlli ilə bağlı fikirlərini bildiriblər. Əhliman Əmiraslanov qaldırılan məsələlərin təhlil olunaraq həll edilməsi istiqamətində zəruri addımların atılacağını diqqətə çatdırıb.

Görüşdə iştirak edən Köhünlü kəndi ilə yanaşı, Şüşün və Qaramahmudlu kəndlərindən olan seçicilər də çıxış edərək, Prezident İlham Əliyevin siyasətini dəstəklədiklərini, qarşıdan gələn seçkilərdə də YAP-ın namizədinə səs verəcəklərini bildiriblər.





# Veteran təşkilatları və ictimai birliklər Siyavuş Novruzovla bağlı 5 saylı Şahbuz-Babək seçicilərinə çağırış etdi

**Bir qrup veteran təşkilatı və ictimai birliklər YAP tərəfindən deputatlığa namizədliyi irəli sürülmüş Siyavuş Dünyamalı oğlu Novruzova dəstək çağırışı ilə 5 saylı Şahbuz - Babək seçki dairəsi üzrə seçicilərə müraciət ünvanlayıb. Müraciətdə deyilir:**











"Hörmətli Həmvətənlərimiz!

Bildiyiniz kimi, 9 fevral 2020-ci il tarixində keçiriləcək parlament seçkilərində 5 saylı Şahbuz-Babək seçki dairəsi üzrə YAP tərəfindən deputatlığa namizədliyi irəli sürülmüş, Əfqanıstan, Sədərək, eləcə də Qarabağ uğrunda gedən döyüşlərdə fəal iştirak etmiş, müharibə veteranı Siyavuş Novruzov Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirak edir.

Siyavuş Novruzov Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri olaraq, hər zaman sözügedən qurumların fəaliyyətinə dəstək verib, günün reallıqları ilə səsləşən yeni qanunların hazırlanması və qəbulu təşəbbüsü ilə çıxış edib.

O hər zaman müharibə və əmək veteranlarına, hərbi qulluqçulara, əlillərə, şəhid ailələrinə diqqət və qayğı göstərmiş, onların həyat və məişət şəraitinin daha da yaxşılaşdırılması üçün əlindən gələni əsirgəməmişdir. Əminik ki, Siyavuş Novruzov yenidən Milli Məclisdə təmsil olunacağı halda, xalqımızın layiqli nümayəndəsi kimi ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan genişmiqyaslı islahatların həyata keçirilməsində, əhalinin rifahının daha da yaxşılaşmasında, sosialyönümlü qanunların qəbul olunmasında bundan sonra da fəal iştirak edəcək.

Hörmətli seçicilər, hamılıqla Siyavuş Novruzova səs verək!"

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı

Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyi

Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyi

"Azərbaycan Əfqanıstan Veteranları" İctimai Birliyi

"Ehtiyatda Olan Zabitlərin Konfederasiyası" İctimai Birliyi

"Tərxis Olunmuş Hərbçi Gənclərin Maarifləndirilməsi" İctimai Birliyi

"20 Yanvar Cəmiyyəti" İctimai Birliyi

"Çernobıl Əlilləri" İttifaqı İctimai Birliyi

Azərbaycan Gözdən Əlillər Cəmiyyəti

Azərbaycan Respublikası "Beynəlmiləlçi Əlil Döyüşçülər" İctimai Birliyi

Azərbaycan Respublikası "Beynəlmiləlçi Əlil Döyüşçülər" Fondu

# MQ həmsədrlərinin Cenevrə bəyanatında iki düşündürücü məqam - tənzimləmədə məxfilik və xalqları sülhə hazırlamaq birlikdə mümkündürmü...

**Azərbaycan və Ermənistan Xarici İşlər nazirlərinin Cenevrədə keçirilən görüşündən sonra ATƏT-in Minsk Qrupu həmsədrləri birgə bəyanatla çıxış ediblər. Bəyanatda bildirilir ki, 28-30 yanvar tarixlərində Cenevrədə ATƏT-in Minsk Qrupu həmsədrləri ayrı-ayrılıqda və birgə Ermənistan və Azərbaycan Xarici İşlər nazirləri Zohrab Mnatsakanyan və Elmar Məmmədyarovla görüşüblər.**

## *Yeganə Hacıyeva: "Cəmiyyətlərin sülhə hazırlanmasının uğuru və ən əsası, ictimai legitimliyi məhz bu proseslərin şəffaf aparılmasından keçir"*

Görüşdə ATƏT-in fəaliyyətdə olan sədrinin nümayəndəsi Anjey Kasprşik də iştirak edib: "Qeyd olunduğu kimi, üç gün davam edən intensiv müzakirələr zamanı həmsədrlər və nazirlər gündəliyin aşağıdakı bəndlərini müzakirə etdilər: 2019-cu ildə müzakirə olunan razılaşma və təkliflərin icrası və əhalini sülhə hazırlamaq üçün mümkün addımlar; gələcək sülhün əsasını təşkil edən prinsip və elementlər; nizamlama prosesinin irəliləməsinin vaxtı və gündəliyi məsələləri.

Həmsədrlər tərəflərə münaqişənin sülh yolu ilə həllində və nizamlama prosesində məxfilik prinsipinin tapılmasında kömək etmək üçün tam sadiqliklərini, habelə ədalətli və davamlı sülhə nail olmaq üçün yaradıcılıq və kompromis ruhunun lazım olduğunu bir daha təsdiq ediblər. Nazirlər yaxın gələcəkdə həmsədrlərin iştirakı ilə görüşməyə razılaşıblar".

Bəyanatda vacib məqam ondan ibarətdir ki, həmsədrlər bir tərəfdən əhalinin sülhə hazırlanmasından danışır, digər tərəfdən isə bu proseslərdə məxfiliyin qorunmasının vacibliyinə işarə edirlər. Əhalini sülhə hazırlamaq kimi mürəkkəb prosesdə məxfilik niyə nəzərdə tutulmalıdır?




Politoloq Yeganə Hacıyeva "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, məhz bizim qəzetdə Dağlıq Qarabağ münaqişəsinin təkcə Cənubi Qafqaz üçün deyil, ümumi Avropa təhlükəsizlik və etimad sisteminin bərqərar edilməsində həssas bir konflikt olması və bu konfliktin həllinin AB-nin təhlükəsizlik sahəsində prioritet mövzularından biri olması haqqında onun özünün iştirakı ilə çoxlu müzakirə aparılıb: "Burada onu qeyd edim ki, Ermənistan Baş nazirinin konfliktin həlli prosesinin ziyanına verilən məsuliyyətsiz və populist çıxışları Azərbaycan üçün müharibəni qaçılmaz edir. Qısamüddətli gərginliyi Ermənistan üçün daxili problemlərin, ölkədaxili siyasi-ictimai təlatümlərin həllində bir vasitə kimi görməsi və Ermənistan Baş nazirinin çıxışlarının gərginliyin yaranmasına hesablanması Azərbaycan və nizamlayıcı tərəflər üçün aydındır.

Buna misal kimi son iki il biz daha çox nizamlayıcı missiyanın tərəflər arasında mövcud sürətli əlaqələrin gərginliyi azaltmaq baxımından mühüm amil olması haqqında rəylərini eşidirik.

Burada bir haşiyəyə çıxım ki, son illərin dəyişən siyasi reallıqları Dağlıq Qarabağ konfliktinin həllini Avropa Birliyi üçün Şərqə genişlənmə siyasətində həll edilməsi həyati vacib məsələyə çevirib. O üzdən, istər açıq, istərsə də örtülü mesajlarda AB-nin ATƏT-in Minsk Qrupunun konfliktin həlli istiqamətində tövsiyə və səylərinin genişləndirilməsi təkliflərini daha israrlı etməsi müşahidə olunur.

Keçən il Azərbaycan Prezidenti və Ermənistan Baş nazirinin təmaslarında razılaşdırılan 28-30 yanvar tarixlərində Cenevrədə Azərbaycan və Ermənistan Xarici İşlər nazirlərinin və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin iştirakı ilə görüşün təşkili, görüşlərin intensivləşdirilməsi təşəbbüsündə də bu özünü göstərir.

ATƏT-in Minsk Qrupunun həmsədrləri İqor Popov (Rusiya), Stefan Viskonti (Fransa), Endryu Şofer (ABŞ) və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspişikində iştirak etdiyi Cenevrə görüşü son illər ərzində tərəflər arasında keçirilmiş ən intensiv müzakirələrin aparıldığı görüş oldu. Azərbaycan XİN-in bildirdiyi tərəflər və həmsədrlərin təqdim etdiyi gündəlik üzrə hərtərəfli müzakirələr aparılması və keçən il ərzində irəli sürülmüş təkliflər və əldə olunmuş razılıqların həyata keçirilməsinin intensivləşdirilməsi qərara alınıb.

Bu məsələlərə iki ölkə əhalisinin sülhə hazırlanması üçün humanitar mübadilələrin həyata keçirilməsi, münaqişənin tənzimlənməsinin əsasını təşkil edən prinsip və elementlər, xüsusilə də münaqişənin Helsinki Yekun Aktının prinsipləri və müddəaları əsasında həlli və nəhayət, münaqişənin həlli prosesinin daha da intensivləşdirilməsi aiddir.

Burada xüsusi diqqət yetiriləsi bir məqam var: iki ölkə əhalisinin sülhə hazırlanması üçün humanitar mübadilələrin həyata keçirilməsi. Razılaşmada ilkin olaraq bu humanitar mübadilələrin ictimaiyyətə məxfi və qapalı keçirilməsi qərara alınıb".

Ekspertin sözlərinə görə, bu humanitar proseslər çərçivəsində biz keçən il jurnalistlərin Dağlıq Qarabağ və Bakıya məxfi səfərlərinin şahidi olduq: "Məsələ ondadır ki, xalq diplomatiyası adlandırdığımız, əhalinin sülhə hazırlanması prosesləri bir neçə təməl baza üzərində qurulur. Bu bu təməl bazalar hüquqdan başqa, həm də psixoloji faktorlar, cəmiyyətlərin spesifik məqamlarının, bu mövzuda cəmiyyət üçün vacib məqamların, cəmiyyətin, ümumilikdə, sülhə hazırlıq imkan və potensialının əsasında formalaşır.

Sadaladığım bu təməl prinsiplərin əsasını həm də cəmiyyətlərin nizamlayıcı və iştirakçı tərəflərə və ümumilikdə, bu prosesə güvən indeksi dayanır.

Təəssüf ki, konfliktin davam etdiyi ilk günlərdən yaşanan proseslər Azərbaycan cəmiyyətində əsaslı olaraq ATƏT-in Minsk Qrupu həmsədrlərinə fəaliyyətin və sülhə hazılanma prosesinin nəticəsinə və ümumilikdə, bu prosesə şübhə və güvənsizlik yaradıb.

**Məxfi və qapalı aparılan istənilən proses bu şübhə və güvənsizlik atmosferini daha da dərinləşdirir və istənilən xoşməramlı addımları artıq cəmiyyətlərin gözündə maraqsız və hətta qeyri-legitim edir. Cəmiyyətlərin sülhə hazırlanmasının uğuru və ən əsası, ictimai legitimliyi məhz bu proseslərin şəffaf aparılmasından keçir. Bu, cəmiyyətlərin prosesə maraq və güvənlə yanaşması üçün əsas təməl bazası olacaq. Bu xüsusda nazirlərin razılaşdığı yaxın zamanda keçiriləcək yeni görüşlərdə bu məqam nəzərə alınmalıdır".**

***Məhəmmədəli QƏRİBLİ***

**İsrail hökumətinin Holokost hadisələri ilə bağlı Ermənistana verdiyi meydandan sonra indi də Rusiyadakı yəhudi icması yarımçıq bəyanat yayıb. Bəyanatda qeyd edilir ki, Ukrayna, Baltikyanı ölkələr və Polşada faşizmlə əlaqəli olan cinayətkarların qəhrəmanlaşdırılması, onların xatirələrinin əbədiləşdirilməsi yəhudilər tərəfindən pislənir.**



# Dünya yəhudilərindən yarımçıq ittiham - Ukrayna və Polşa faşizmi əbədiləşdirməyə görə ittiham edilir, Ermənistan yox...

***Mübariz Əhmədoğlu:** "Yəhudilər bu məsələdə ikili standarta yol verirlər, özü də açıq şəkildə"*

Bu barədə bəyanatı Rusiya yəhudi icmasının prezidenti Aleksandr Boroda imzalayıb. Qurum rəhbəri Ukraynada Stepan Banderaya ucaldılan heykəlin də yığışdırılmasını tələb edir. Onun sözlərinə görə, belə adamlar milli azadlıq hərəkatının qəhrəmanları kimi cəmiyyətə təqdim olunur, əslində isə əlləri qana batmış faşistlərdir. Çox maraqlıdır ki, yəhudi icmasının rəhbəri bu xüsusda faşistlərin xatirəsini hamıdan çox əbədiləşdirən Ermənistanın adını qeyd etmir. Yəhidi diaspor rəhbərinin bu yarımçıq mövqeyini nə ilə izah edə bilərik?

Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin rəhbəri Mübariz Əhmədoğlu "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bunun səbəbləri çoxdur: "Qeyd edim ki, son vaxtlar İsraillə Ermənistan arasında ciddi yaxınlaşma meylləri hiss edilir. Gördünüz ki, İsraildə keçirilən Holokostla bağlı tədbirdə Ermənistan Prezidenti yuxarı başa keçirilmişdi. Erməni mediası məlumat yayıb ki, yəhudilər Ermənistanda İrana qarşı baza tikirlər. Özü də Gümrüdə. Niyə məhz Gümrüdə olması onunla izah olunur ki, orada Rusiyanın da bazası var, İran risq edib həmin yeri vura bilməsin. Bu məlumatın tam dəqiq olub-olmaması ilə bağlı nəsə deyə bilmərəm. Amma olduqca ciddi məqamdır. Görünür, İsrailin Ermənistana qarşı yumşaq davranışlarının kökündə həm də bu amil durur. Çox maraqlıdır ki, Rusiyadakı yəhudi icmasının rəhbərinin bəyanatında da erməni təəssübkeşliyi hiss edilir. Bunu mən informasiyasızlıqla əlaqələndirməzdim. Çünki bəyanatın təsir dairəsinə çoğrafi cəhətdən daha uzaq olan Polşa düşürsə, onda Ermənistanın adının niyə qeyd edilməməsi şübhə doğurmaya bilməz. Bu yaxınlarda tanınmış yəhudi politoloqlarından birinin rəyi ilə tanış oldum. Bilirsiniz o nə deyir? Deyir ki, Qaregin Njdeni faşist kimi yox, anti-Türkiyə mövqeyində olan döyüşçü kimi tanıyırlar. Yəni Njdenin "qəhrəmanlığını" Osmanlıya qarşı döyüşdüyü ilə izah etdilər. Eyni Paşinyanın mövqeyi kimi. Bir müddət əvvəl Paşinayan da bənzər açıqlama vermişdi".

Politoloqun sözlərinə görə, Njdenin faşistlərlə əlbir olması faktlarla sübuta yetir və Ermənistan hakimiyyəti ona heykəl qoyub: "Biz bütün bu faktları təkrarən bütün yəhidi diaspor təşkilatlarına və rəsmi dövlət qurumlarına göndərməliyik. Ona görə ki, məlumatlarının zəif olmasını bəhanə edə bilməsinlər. Hesab edirəm ki, son vaxtlar yəhudilərin bu istiqamətdə ermənilərlə bənzər siyasət yürütməsi Türkiyə və bizim tərəfimizdən ciddi nəzarətdə saxlanılmalıdır. Dünyada faşizmi Ermənistan qədər əbədiləşdirən ikinci ölkə yoxdursa, niyə onun adı çəkilmir? Deməli, yəhudilər bu məsələdə ikili standarta yol verirlər, özü də açıq şəkildə".

*Məhəmmədəli QƏRİBLİ*

---

**Erməni mətbuatının yazdığına görə, Qarabağdakı separatçı rejimin tikdiyi kiçik su elektrik stansiyaları ekoloji fəlakətə yol açıb. Belə ki, tikinti zamanı standartlara əməl olunmaması çayların dayazlaşmasına, bəzilərinin isə qurumasına səbəb olub. Su elektrik stansiyaları standartlara əməl edilmədən tikilib və bəzi çaylarda suyun istifadəsi 100 faizə çatır.**

*"...sözügedən məsələləri beynəlxalq təşkilatlar qarşısında qaldırmalıyıq"*

# Qondarma rejim Dağlıq Qarabağın su ehtiyatlarını ekoloji fəlakət həddində istismar edir

***Elçin Mirzəbəyli:** "Ermənistanın işğal olunmuş ərazilərdə törətdiyi ekoloji fəlakət beynəlxalq konvensiyalara ziddir"*



Bu gedişlə Tərtər çayının da dayazlaşacağı gözlənir. Bununla yanaşı, separatçı rejim daha iki çay üzərində SES tikintisinə başlayıb. Belə ki, 28-ci ildir işğal altında qalan Laçın rayonundakı Hoçaz və Həkəri çayları üzərindəki yeni kiçik SES-lərin tikintisi sürətlə davam edir.

Hətta işğal altında olan Kəlbəcər rayonunda su elektrik stansiyalarının inşasına qarşı bir il əvvəl etirazlar baş verib. Orada məskunlaşdırılan ermənilər yolu bağlamaqla su elektrik stansiyasının inşasına mane olmağa çalışıblar.

Qarabağda yeni SES-lərin tikintisinə etiraz olaraq aclıq aksiyası keçirən erməni politoloq Aleksandr Kananyan bildirib ki, o, "Kaşataq" rayonuna (Laçın, Qubadlı, Zəngilan əraziləri) gedib və tamam qurumuş çayları görüb: "Kiçik SES-lərin tikintisindən sonra yaranmış vəziyyətdən dəhşətə gəldim. Şimalda əsas çaylardan ikisi - "Axavno" (Zabux) və "Kaxoçants" (Hoçaz) çayları tamamilə qurudulub. Bu il eyni tale "Şalva" (Şəlvə) çayını da gözləyir. Bundan əlavə, "Akari" (Həkəri) çayının yuxarı axarında yeni SES-in inşasına başlanıb. İnsanlar yaxşı bilməlidirlər ki, "Karvaçar" (Kəlbəcər) və "Kaşataq" (Laçın, Qubadlı, Zəngilan rayonları) bölgələri necə gəldi, heç bir məsuliyyət olmadan istismar edilə bilməz".

Göründüyü kimi, Dağlıq Qarabağdakı separatçı rejimin su ehtiyatlarından vəhşicəsinə istifadə etməsi bölgədə ekoloji fəlakət yaradır. İşlər bu cür davam edərsə, ərazidəki ekoloji fəlakətin miqyası daha da genişlənəcək. Bu da çox ciddi fəsadlara yol açacaq. O baxımdan buna necə mane olmaq olar? Sözügedən məsələ ilə bağlı hansı addımlar atıla bilər?

Məsələyə münasibət bildirən politoloq Elçin Mirzəbəyli buna bir neçə aspektdən yanaşdı: "Bütövlükdə, Azərbaycan işğal olunmuş ərazilərdə ekoloji tarazlığın pozulması və təbiətə ziyan vurulması ilə bağlı məsələləri qaldırır. Məlum olduğu kimi, Sərsəng su anbarı ilə də bağlı AŞPA tərəfindən müvafiq qətnamə var. Beynəlxalq təşkilatlar bu məsələyə münasibət bildiriblər, amma nəticə etibarilə Ermənistan yenə də işğal olunmuş ərazilərdə ekoloji tarazlığın pozulması istiqamətində işlər aparır. Bu təkcə su ehtiyatlarının istismarında özünü göstərmir, digər sahələrdə də özünü göstərir. Meşə ehtiyatları məhv edilir, Qarabağın yeraltı sərvətləri istismar edilir. Ermənistanın işğal olunmuş ərazilərdə törətdiyi ekoloji fəlakət beynəlxalq konvensiyalara ziddir. Bu həm ekoloji, həm də işğal olunmuş ərazilərdə qanunsuz məskunlaşdırma siyasətinin aparılması baxımından beynəlxalq konvensiyalara ziddir. Ona görə də biz yenidən sözügedən məsələləri beynəlxalq təşkilatlar qarşısında qaldırmalıyıq. Hələlik gücümüz yalnız buna çatır.

**Dünyada digər münaqişələrdə oxşar vəziyyətlə bağlı sanksiyalar tətbiq edilir. Ona görə də çalışmalıyıq ki, oxşar sanksiyalar Ermənistana da tətbiq edilsin. Söhbət diplomatik və iqtisadi sanksiyalardan gedir. Beynəlxalq birlik bununla bağlı Ermənistana siyasi təzyiq göstərərsə, o zaman bunun hansısa nəticəsi olar. Təzyiq olmayacaqsa, işğalçı tərəf yenə öz bildiyini edəcək".**

*Vidadi ORDAHALLI*

**Azərbaycan və İran arasında genəşlənən münasibətlər işğalçı Ermənistanda böyük narahatlıqla izlənməkdədir. O baxımdan ki, bu layihələr Ermənistanın regional təcridini daha da dərinləşdirir. Eyni zamanda, yaranmış vəziyyət Ermənistanın İranla birgə həyata keçirmək istədiyi layihələrin də üzərindən xətt çəkir.**

# Azərbaycan Ermənistanın İranla Şimal-Cənub magistral yol layihəsinə son zərbəni vuracaq, Tehran-Mazandaran yolu...




Məhz belə bir vaxtda bəlli olub ki, Tehran-Şimal magistral avtomobil yolu cari ilin martında istifadəyə veriləcək.

İranın yollar və şəhərsalma naziri Məhəmməd İslami bildirib ki, 400 milyon dollardan çox vəsaitin sərf olunması ilə tikilən yol İran iqtisadiyyatının inkişafına böyük töhfə verəcək. Tehran-Şimal avtomobil yolu İranın paytaxtı ilə Mazandaran vilayətinin bir sıra şəhərlərini birləşdirir. Bu vilayət Azərbaycanla sərhəddə yerləşir və yolun istifadəyə verilməsi qarşılıqlı əməkdaşlıq əlaqələrinin inkişafına təkan verəcək. "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi çərçivəsində inşa edilən yolun beynəlxalq əhəmiyyəti ondan ibarətdir ki, yol təkcə İranla Azərbaycanı deyil, həm də ölkəmizin ərazisindən keçməklə Rusiyanı İranla birləşdirəcək. Xatırladaq ki, Tehran dünyanın ən böyük sənayeləşmiş şəhərlərindən biridir. 16 milyondan çox əhalinin yaşadığı bu şəhərdə istehsal olunan sənaye məhsulları Rusiya və digər MDB ölkələrinə ixrac edilir. Tehranda, xüsusilə tikinti materialları, neft məhsulları istehsal olunaraq ixrac edilir. Yüklər isə Tehran-Şimal magistral yolu ilə Azərbaycan üzərindən daşınacaq. İranın yollar və şəhərsalma nazirinin bu yolun beynəlxalq əhəmiyyət daşıdığını vurğulaması təsadüfi xarakter daşımır.

Məhəmməd İslami onu da qeyd edir ki, İran və Azərbaycan magistral avtomobil, eləcə də dəmir yollarını birləşdirəcək. Onun sözlərinə görə, artıq iki ölkə magistral yollarını birləşdirmək üçün razılıq əldə edib. Nazir bildirir ki, Rəşt-Astara dəmir yolunun təkmilləşdirilməsi İran prezidenti Həsən Ruhaninin icra etdiyi önəmli layihələrdən biridir:"Yerli əhalinin kənd təsərrüfatı ərazisini layihənin icrası üçün satması tez bir zamanda layihənin icrasına töhfəsini verəcək". Azərbaycan və İran arasında nəqliyyat sahəsində əməkdaşlığı yüksək qiymətləndirən M.İslami bildirib ki, tranzit və ticarətin artması iki ölkənin əlaqələrinə müsbət təsir göstərir və bu təsiri Astara limanında çox yaxşı şəkildə müşahidə olunur. Nazir onu da qeyd edib ki, Azərbaycanla Bakı-Astara-Rəşt magistral yolunun tikintisi və iki ölkənin magistralının birləşdirilməsi ilə bağlı razılıq əldə olunub: "Bu məqsədə çatmaq üçün Astaraçayın üzərində yeni körpü tikiləcək. Yeni körpünün tikintisinin təməlqoyma mərasimi tezliklə baş tutacaq". O həmçinin qeyd edib ki, Rəşt magistral yolu Astara və daha sonra Ərdəbilə birləşdiriləcək.

Ümumiyyətlə, İran tərəfindən regionda planlaşdırılan nəqliyyat layihələrindən biri də Fars körfəzi-Qara dəniz nəqliyyat dəhlizidir. İranın təklif etdiyi layihənin məqsədi Cənubi Qafqaz və Qara dəniz vasitəsilə Avropaya çıxış əldə etməkdir. İran aydın görür ki, layihə Azərbaycan vasitəsilə həyata keçirilərsə, bu, kommersiya baxımından daha səmərəli olar. Belə ki, zəruri infrastruktur artıq Azərbaycanda mövcuddur. İndiyə qədər isə Ermənistan bu məsələdə İranın tərəfdaşı olmağa çalışırdı. Lakin Ermənistanda layihə üçün zəruri infrastruktur yoxdur. Ermənistan layihədə dəmir yolu vasitəsilə iştirak etmək istəyirsə, bunun üçün dəyəri 3,5 milyard dollardan çox olan Cənubi İran-Ermənistan seqmenti tikilməlidir. Bu isə Ermənistanın maliyyə imkanları xaricindədir. İranın özü də maliyyə problemlərinə görə Ermənistana kömək edə bilmir. Xarici maliyyələşmə əldə etmək isə çətindir, heç kim səmərəsiz layihəyə investisiya yatırmaq istəmir. Digər tərəfdən isə Ermənistanın dəmir yolu Rusiyanın idarəçiliyi altındadır və bu layihə Rusiyanın regiondakı maraqlarına xidmət etmir. Eləcə də Ermənistanın avtomobil yollarında vəziyyət yaxşı deyil və modernizasiyaya ehtiyac var. Bu məqsədlə də Ermənistan 2012-ci ildən başlayaraq özünün ən böyük nəqliyyat layihəsi sayılan "Şimal-Cənub" Magistral Yol layihəsini həyata keçirir və layihənin yalnız 20 faizini icra edə bilib. Maliyyə problemlərinə görə 2018-ci ilin dekabrından etibarən tikinti dayandırılıb. Buna görə də avtomobil yolları ilə də Ermənistanın bu layihədə iştirakında məhdudiyyətlər mövcuddur. Bu səbəbdən İran bütün diqqəti Azərbaycana yönəldib və Ermənistanı da narahat edən məhz budur. Regionun digər ölkəsi olan Gürcüstan da bütün əhəmiyyətli layihələrdə Azərbaycan və Türkiyə ilə əməkdaşlıq edir. Məhz belə vəziyyətdə Ermənistanın daha bir mühüm layihədən kənarda qalması qaçılmaz sayılır. Hər halda, proseslər məhz bu istiqamətdə də cərəyan edir.

***Tahir TAĞIYEV***

---

**"Qarabağ klanı" ilə Nikol Paşinyan iqtidarı arasında qarşıdurma yenidən kəskinləşməkdədir. Belə görünür ki, "Qarabağ klanı" hakimiyyətin inzibati resurslar vasitəsilə onu sıradan çıxarmasına qarşı daha aktiv müqavimət göstərməyi planlaşdırır. Bunun ilkin anonsları artıq Ermənistanın eks-prezidenti Robert Köçəryan tərəfindən verilib.**

# Sabiq Ermənistan prezidenti Köçəryan Azərbaycan həbsxanasından necə və nə vaxt qaçdı...

## *Akif Nağı: "Qarabağda separatizmin alovlandığı dövrdə bəzi fəal ermənilər həbs olunub, amma Köçəryanın həbs olunması faktı yoxdur"*



R.Köçəryan həbs olunandan ara-sıra Paşinyana yönəlik açıqlamalar verir. Hətta özü barəsində bəzi məsələləri şişirdir. O, son müsahibəsində iddia edib ki, guya vaxtilə Azərbaycan həbsxanasından belə qaçmağı bacarıb: "Hakimiyyətin fəaliyyəti məni siyasətə qaytardı. Hakimiyyət həbsdə saxlamaqla məni özlərinin qabiliyyətsiz siyasətinə qarşı hərəkatın simvoluna çevirdi. Qarabağ hərəkatı başlayanda mən möcüzə nəticəsində Azərbaycan həbsxanasından qaça bildim. Taleyin ironiyası odur ki, məni azadlıqdan məhrum etməklə hakimiyyət azərbaycanlıların edə bilmədiyini etdi". Həbsxanadan siyasi mübarizəyə başlayacağını bildirən Köçəryan "ölkənin azad olunmasında" vacib rol oynayacağını deyib.

Qarabağda erməni separatizmi baş qaldırdıqdan sonra o zaman separatçıların bəziləri həbs edildi. Ancaq Moskvanın təzyiqi ilə onlar yenidən azad edildi. Məsələn, o zaman separatçıların başında duran şəxslərdən biri də Samvel Babayan idi. O, 1991-ci ildə Xanlar (indiki Göygöl) rayonunun ərazisində sovet hərbçiləri tərəfindən həbs edildi. S.Babayan 6 ay Bakıda həbsdə qaldıqdan sonra Moskvanın təzyiqi ilə həbsdən buraxıldı. O vaxt R. Köçəryan həbs olunsaydı, bu mütləq arxiv sənədlərində əksini tapardı. R.Köçəryan həbs edilməyibsə, o zaman həbsxanadan necə qaçıb? Ona görə də R.Köçəryan özü barəsində bəzi məsələləri uydurur.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağının sözlərinə görə, R.Köçəryanın Azərbaycan həbsxanasından qaçması barədə səsləndirdiyi fikirlər yalandır: "O zamankı proseslər yaxın tarixdə baş verib. Düzdür, R.Köçəryan və Serj Sarkisyan hərbi cinayətkardırlar. Onlar Azərbaycana qarşı hərbi cinayətlərdə bilavasitə iştirak ediblər. Ancaq onlar buna görə cəza almayıblar. Qarabağda separatizmin alovlandığı dövrlərdə bəzi fəal ermənilər həbs olunub, amma Köçəryanın həbs olunması faktı yoxdur. Sadəcə, Köçəryan özü barəsində qəhrəman obrazı yaratmaqdan ötrü belə şey uydurur. Guya Azərbaycan həbsxanasından qaçıb. Separatçılardan bəziləri həbs edildi, ancaq Moskva müdaxilə etdiyi üçün onları çox saxlamaq mümkün olmayıb. Hətta Şuşa türməsindən bəzilərini sovet rəhbərliyi vertolyotla çıxarırdı. Köçəryanın türmədən qaçması mümkün deyildi. Köçəryan bununla özü barəsində uydurma qəhrəmanlıq imici yaradır. O vaxt S.Babayan həbs edildi, amma Moskvanın təzyiqi ilə əlaqədar bir neçə aydan sonra həbsxanadan azad edildi. Dinc azərbaycanlıların qırılmasında göstərdiyi "xidmətlərə" görə Ermənistan rəhbərliyi onu əvvəlcə sıravilikdən polkovnikliyə qaldırıb, daha sonra general rütbəsi verib. Deməyim odur ki, R.Köçəryanın həbsxanadan qaçması ilə bağlı səsləndirdiyi fikirlər yalandır".

*"Sadəcə, o özü barəsində qəhrəman obrazı yaratmaqdan ötrü belə şey uydurur"*

***Vidadi ORDAHALLI***

**Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Cenevrədə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin son görüşünün detalları barədə geniş məlumat olmasa da, burada gərgin müzakirələrin aparıldığı məlumdur.**

# Cenevrədə Azərbaycanın diqtə edən tərəf olduğunu Ermənistanda da etiraf edirlər...

Xatırladaq ki, 28-30 yanvar tarixlərində Cenevrədə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin ATƏT-in Minsk Qrupunun həmsədrləri və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin iştirakı ilə görüşü baş tutub.

Xarici İşlər Nazirliyinin Mətbuat Xidməti İdarəsindən verilən məlumata görə, Cenevrə görüşü son illər ərzində tərəflər arasında keçirilmiş ən intensiv müzakirələrin aparıldığı görüş olub: "Tərəflər həmsədrlərin təqdim etdiyi gündəlik üzrə hərtərəfli müzakirələr apardılar. Bu sırada ilk olaraq, 2019-cu il ərzində irəli sürülmüş təkliflər və əldə olunmuş razılıqların, xüsusilə iki ölkə əhalisinin sülhə hazırlanması üçün humanitar mübadilələrin həyata keçirilməsi, münaqişənin tənzimlənməsinin əsasını təşkil edən prinsip və elementlər, xüsusilə də münaqişənin Helsinki Yekun Aktının prinsipləri və müddəaları əsasında həlli və nəhayət, münaqişənin həlli prosesinin daha da intensivləşdirilməsi məsələləri müzakirə olunub. Bu xüsusda, nazirlər yaxın zamanda yenidən görüşməyə razılaşıblar". Bu açıqlamadan aydın olur ki, tərəflər danışıqlar vasitəsilə irəliyə doğru müəyyən addımların atılmasında maraqlıdır.

Baş verənlərlə bağlı erməni tərəfinin reaksiyası onların əslində prosesdən ciddi surətdə narahat olduğunu güstərir. Erməni ekspertləri bildirir ki, gərgin keçən danışıqlarda Azərbaycan şərtlərini diqtə edir. Özü də müxtəlif rakurslardan. Məsələn, "Politekonomiya" araşdırma İnstitutunun direktoru Andranik Tevanyan bildirir ki, Azərbaycanın gedişləri nəticəsində Nikol Paşinyan Qarabağ rejimini danışıqlar masasına gətirə bilmədi, əksinə, Qarabağın Azərbaycanlı İcmasının subyektivliyini təmin edə bildi:

"Nikol Paşinyanın "Qarabağ danışıqlar masası ətrafında oturmalıdır" proqramı çərçivəsində ABŞ-ın Azərbaycandakı səfiri Qarabağın azərbaycanlı icmasının rəhbəri ilə görüş keçirib. Xatırladaq ki, ABŞ üç həmsədr ölkədən biridir. Maraqlıdır ki, Qarabağın Azərbaycanlı İcması ilə görüş ABŞ səfirinin təşəbbüsü ilə baş tutub və Mnatsakanyan-Məmmədyarov görüşü öncəsi təşkil edilib.

Yeri gəlmişkən, Ermənistan tərəfinin inadla "görüş" adlandırdığı Ermənistan və Azərbaycan xarici işlər nazirləri arasında saatlarla davam edən danışıqlar Paşinyanın münaqişə ilə əlaqəli masada heç bir sənəd olmadığı barədə açıqlamaları fonunda baş tutur. Belə çıxır ki, Mnatsakanyan vasitəçilərin iştirakı ilə 7 saat heç bir şey haqqında danışıb. Azərbaycan diplomatiyası, Paşinyanın eklektik və populist addımlarından istifadə edərək, Qarabağ rejimini və Qarabağın azərbaycanlı icmasını eyni platformaya qoyur. Rusiya səfiri Qarabağın Azərbaycanlı İcmasının nümayəndələri ilə görüşsəydi, o halda "dənizdən-dənizə Ermənistan" tələb edənlərdən, qərbyönümlülərdən, "mülki şəxslərdən", "ekoloqlardan" və Ermənistandakı Rusiya hərbi bazalarına qarşı çıxış edən digər subyektlər adı altında gizlənən Ermənistandakı 5-ci türk kolonu kosmik səs-küy qaldırar və bağıraraq səs-küy qaldırardılar ki, ay aman, qoymayın, Rusiya Ermənistana zərbə vurur və xəyanət edir".



Ermənistanın Qafqaz İnstitutunun direktoru, politoloq Aleksandr İskəndəryan da Azərbaycanın danışıqlarda daha üstün mövqeyə çıxdığını bildirir: "Paşinyan bildirir ki, Əliyevlə danışmaq mümkündür. Həmin Paşinyan sonra deyir ki, "Qarabağ Ermənistandır". Eyni adam fərqli vəziyyətlərdə fərqli şeylər deyir. "Madrid prinsipləri" hələ danışıqlar masasındadır, ATƏT-in Minsk Qrupu həmsədrlərinin başqa təklifi yoxdur, hər halda yaxın illərdə də olmayacaq. "Madrid prinsipləri" həmsədrlərin onunla danışıqlar aparmağı təklif etdiyi "dil"dir, tərəflərdən heç biri bu prosesdən çıxış etməyib və danışıqlar bu "dil"lə aparılır. Belə vəziyyət də Azərbaycanın mövqeyini gücləndirir". Qarabağda yerləşdirilən qanunsuz "hərbi birləşmə"nin keçmiş komandiri Samvel Babayan da Azərbaycanın üstünlüyünü etiraf edənlər sırasındadır: "Bu gün Ermənistandan Serjin dövründə olanlar tələb edilir.

Yeni 7 rayonun - Ağdam, Fizuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcər və Laçının qaytarılması və qaçqınların geri qaytarılması... Paşinyan Sarkisyanın irsi nöqteyi-nəzərincə danışıqlar prosesini davam etdirirsə, o, kapitulyasiya imzalayacaq.

**Digər tərəfdən o, danışıqlar prosesindən imtina etsə, bu, Azərbaycan hakimiyyətilə keçmiş razılaşmadan imtina etmək anlamına gələcək və müharibəyə gətirib çıxaracaq. Hər iki ssenari ermənilər üçün qəbuledilməzdir". Lakin Ermənistanın başqa çıxış yolu da yoxdur. Hesab edilir ki, Azərbaycan ya sülh, ya da danışıqlar yolu ilə istədiyi nəticəyə nail olacaq. Ermənistanda narahatlıq doğuran həm də odur ki, artıq hər iki istiqamətdə Azərbaycan əvvəlkilərlə müqayisədə daha güclü mövqe sahibidir.**

***Tahir TAĞIYEV***

**Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu Ankarada Beynəlxalq Jurnalistlər Federasiyasının nümayəndələri ilə görüşü zamanı deyib ki, Dağlıq Qarabağ münaqişəsində həll yolu tapmaq üçün səylərini davam etdirirlər.**

# Rusiyanın bir "hə"si və Türkiyənin Qarabağ problemini həll etməsi...



O vurğulayıb ki, bu il də Qarabağ məsələsinə böyük diqqət ayıracaqlar: "Rusiya bu məsələyə öz təsirini göstərsə, biz onu həll edəcəyik".

Göründüyü kimi, Türkiyənin Xarici İşlər naziri açıq etiraf edir ki, münaqişənin həllinin açarı Rusiyanın əlindədir. Əslində, burada heç bir yenilik kəşf edilməyib. Çünki Rusiyanın regiona təsir gücünün böyük olduğunu hamı bilir. Bəs Türkiyə bu məsələdə qardaş ölkəyə yardım üçün

## ***Qabil Hüseynli:*** *"Rusiyanın geri çəkilməsinə gözləməklə deyil, təzyiqlə nail olmaq mümkündür"*

yalnız Rusiyanın mövqeyini gözləməlidir, yoxsa müstəqil addımlar da ata bilər?

Politoloq Qabil Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Türkiyə bir qardaş ölkə olaraq bu məsələdə Rusiya faktorunu əsas gətirib yaxasını kənara çəkməməlidir: "Biz də bilirik ki, hər şey Rusiyadan asılıdır. Rusiya ilə dil tapıla bilsə, elə özümüz də münaqişəni həll edə bilərik. Türkiyə özündən kənardakı maraqlarını da ardıcıl şəkildə, yeri gələndə böyük prinsipallıqla qoruyur. Məsələn, Liviyaya və Suriyaya qoşun göndərə bilirsə, deməli, Dağlıq Qarabağla da bağlı mövqeyini sərtləşdirə bilər. Bura Türkiyəni digər türkdilli ölkələrlə birləşdirən yoludur. Bura fikri daha çox verməlidir. Gözü ilə görür ki, Dağlıq Qarabağla bağlı ciddi ədalətsizliklərə yol verilir. Rusiyaya çox bel bağlamamalıdır. Rusiya onu Suriyada aldatdı. Liviyada üz-üzə gəlirlər. Türkiyə regional gücdür, NATO üzvüdür. Yaxşı olar ki, potensialını tam olaraq Dağlıq Qarabağ konfliktinin həllinə yönəltsin. Rusiya heç vaxt Türkiyənin xeyri üçün buradakı maraqlarını güzəştə gedən deyil. Biz Rusiyaya qarşı açıq dirəniş göstərə bilmərik.

Ancaq Türkiyə kənardan bu məsələlərdə dəyişiklik edə bilər. Hesab edirəm ki, Türkiyə Fələstin probleminə ayırdığı diqqəti, sərf etdiyi enerjini bura ayırsa, Rusiyanın mövqeyinin neytrallaşmasında irəliləyiş əldə oluna bilər. Rusiyanın geri çəkilməsinə gözləməklə deyil, təzyiqlə nail olmaq mümkündür. Mən əminəm ki, Türkiyə belə potensiala sahib ölkədir".

***Məhəmmədəli QƏRİBLİ***

**Neft İxrac Edən Ölkələr Təşkilatının (OPEC) martda keçirilməsi nəzərdə tutulan toplantısı daha erkən vaxtda təşkil edilə bilər. Məsələ burasındadır ki, neftin qiymətinin koronavirusun bazarda tələbata zərbə vuracağına dair narahatlıq fonunda ucuzlaşmasından sonra OPEC üzvləri gələn ay təcili iclas keçirməyi düşünür.**

# Braziliya dünya neft bazarında Azərbaycanın da təsir etdiyi qiymət sabitliyini pozmağı hədəflədi...

Əlcəzairin Energetika naziri Məhəmməd Arkab bu xüsusda bildirib: "Ehtimal ki, OPEC martda keçirəcəyi iclası daha tez - fevralda təşkil edəcək. Bununla bağlı yaxın günlərdə qərar verilə bilər".

Qeyd edək ki, Əlcəzair OPEC-ə sədrlik edir, bu ona baş katib və digər üzvlərlə məsləhətləşdikdən sonra təcili iclas keçirmək hüququ verir. Xatırladaq ki, OPEC-in baş katibi Məhəmməd Barkindo daha əvvəl martda Avstriyanın paytaxtı Vyanada Neft İxrac Edən Ölkələr Təşkilatının iclasının keçiriləcəyini deyib. O, beynəlxalq ticarətdəki bəzi mübahisələrin həll olunacağını gözlədiklərini, eləcə də cari ilin birinci və ikinci rübündə sabitliyə diqqəti yönəltməkdə davam edəcəklərini bildirib.

Onu da bildirək ki, 2019-cu il dekabrın 6-da OPEC və qeyri-OPEC nazirlərinin görüşündə "OPEC plus" üzrə gündəlik neft hasilatının daha 500 min barrel azaldılması barədə qərar qəbul edilib. Yeni "Əməkdaşlıq Bəyannaməsi"nə uyğun olaraq, Azərbaycanın öhdəliyi 27 min barrel müəyyən edilib. 2020-ci ilin yanvar ayından etibarən Azərbaycan gündəlik neft hasilatını 769 min barrel həcmində saxlamalıdır. Qurumun yeni islasında da iştirakçıların neft istehsalının daha da azaldılması barədə qərar qəbul etməsi gözlənilir. ABŞ-ın "Citigroup Inc"i qurumunun meneceri Ed Morse də bunu təsdiq edir. O, OPEC və tərəfdaşlarının Çində yayılan koronavirusun bazarda neft tələbatını azaltdığını nəzərə alaraq növbəti iclasda istehsal məhdudiyyətlərini daha da artıra biləcəyini qeyd edib. Amma OPEC-i təkcə barəsində bəhs edilən virus narahat etmir. Braziliya faktoru da təşkilatı narahat edən başlıca məqamlardan birinə çevrilib. Braziliyanın Energetika və Dağ-mədən Sənayesi Nazirliyinin rəhbəri Benito Albukerke bəyan edib ki, ölkəsi OPEC-ə qoşulmayacaq və neft hasilatını kəskin artırmaq niyyətindədir: "Braziliya nə OPEC-ə daxil olmağı planlaşdırır, nə də heft hasilatının məhdudlaşdırılmasına dair razılaşmada iştirak etməyi. Biz hasilatı məhdudlaşdırmaq yox, artırmaq istəyirik". Onun sözlərinə görə, hökumət neft və qaz hasilatını dünya enerji ixracatçılarının ilk beşliyində yer təmin edən səviyyəyə qaldırmağa çalışır. Hazırda Braziliya doqquzuncudur. Baş verənlərlə bağlı RIA "Novosti" yazır: "Maraqlıdır ki, keçən ilin sonunda Braziliyanın kartelə qoşulmaqla bağlı OPEC-lə danışıqlara hazır olduğunu söyləyən də məhz o nazir idi. Bundan bir qədər əvvəl, oktyabr ayında Braziliya prezidenti Jair Bolsonaru Səudiyyə Ərəbistanının energetika naziri və OPEC-in de-fakto lideri Şahzadə Abdüləziz bin Salmanın qeyri-rəsmi olaraq Braziliyanı təşkilata qoşulmağa çağırdığını açıqlamışdı. Ancaq milli neft-qaz şirkəti Petrobras və bir çox hökumət üzvləri buna qarşı çıxdı. Beləliklə, İqtisadiyyat naziri Paulo Gedes "Braziliyanın strategiyası kartelləri ortadan qaldırmaq, qloballaşan bir iqtisadiyyata inteqrasiya etmək, bütün xalqların rifahını təmin etmək və bir karteldən digərinin əleyhinə istifadə etməməkdir" dedi. Benito Albukerkenin sözlərinə görə, OPEC-lə münasibətlər məsələsi onun iyul ayında Səudiyyə Ərəbistanına səfəri zamanı müzakirə ediləcək.




Hələlik Braziliya neft hasilatını artırır. 2019-cu ildə ölkə hasilat məsələsində artıq rekord səviyyəyə çatdı: gündə üç milyon barreldən çox. Albukerke növbəti onillikdə sutkalıq hasilatın ikiqat artacağını və 2030-cu ilə qədər yeddi milyon barrelə çatacağını vəd edir. "Rystad Energy" analitiklərinin proqnozlarına görə, cari ildə Braziliya "qara qızıl" ixracına gündə 459 min barrel əlavə edəcək.

Braziliyanın OPEC-ə üzv olmaqdan imtina etməsi bütün neft karteli üçün pis xəbərdir. Xüsusilə də OPEC + sazişinə görə hasilatı hər kəsdən daha çox azaldan Səudiyyə Ərəbistanı üçün: 2015-ci ildə gündəlik hasilatı 11 milyon barreldən 9,8 milyona düşürüb.

Ümumilikdə OPEC+ sazişinin iştirakçıları hasilatı gündə 32,4 milyon barreldən 30 milyona endirdi. Nəticədə qiymətləri sabitləşdirmək mümkün oldu, lakin ümumi bazar payı 33,6% -dən 28.5% -ə qədər tarixi minimumuna endi. OPEC bu fonda Amerika şist inqilabının "qədərindən artıq oturacağına" və bumun tükənməsini gözləyəcəyinə, şirkətlərin borcların öhdəsindən gələ bilməyərək istehsalı artırmağı dayandıracağına ümid edirdi. Hesablamalar özünü doğrultdu. ABŞ Energetika Nazirliyinin Enerji Məlumatları İdarəsinin hesabatına görə, 2020-ci ildə ABŞ-da neft hasilatı gündə cəmi 400 min barrel artacaq. Bu, 2017-ci ildən bəri ən zəif artımdır.

Eyni zamanda, şist neft istehsalında əsl fəlakət gözlənilir, çünki bu il müəssisələr 41 milyard dollar dəyərində borcları ödəməli olacaqlar. Bu o deməkdir ki, növbəti aylarda 2015-ci ildən bəri iflas elan etmiş iki yüz neft və qaz şirkətinə daha bir neçəsi də qoşulacaq. İnvestorlar şistdən üz döndəriblər və onlara yeni kredit verməkdən imtina edirlər.

**Üfüqdə yeni bir təhlükə yaranır - ekoloqlar yeraltı suların zəhərlənməsinə və atmosferə metanın atılmasına son verilməsini tələb edir. Bu vəziyyətdə, dünya bazarındakı mövqeyini qorumaq üçün Səudiyyə Ərəbistanı yalnız Braziliyanı OPEC + sazişinə qoşulmağa və əlavə qara qızılı bazara çıxarmamağa inandıra bilər. Digər tərəfdən, Braziliyanın bundan istifadə edərək bazarda genişlənmək barədə açıq istəyi kartel iştirakçılarının səbrini daşıra bilər". Bunlar fonunda gözlənir ki, OPEC+ sazişinin iştirakçılarının birgə səyi Brazilayını da yola gətirəcək. Çünki bu halda neftin qiymətini yüksək həddə saxlamaq mümkün olacaq və bu da, Azərbaycan daxil olmaqla, bütün hasilatçılar üçün məqbuldur.**

***Ramil QULİYEV***

# Paşinyanın ən qorxulu rəqiblərindən biri də Avrasiya İttifaqından İrəvana qayıdır

**Son dövrlərdə Ermənistanda ən aktual müzakirə mövzularından biri də yeni hakimiyyət dəyişikliyinin ola biləcəyi, iqtidara kimin gələcəyi ilə bağlıdır. Bu xüsusda indi olduqca fərqli və maraqlı fikirlər səslənir. Adıçəkilən ölkənin "Past" qəzeti yazır ki, Avrasiya İttifaqı Komissiyasının sədri, Ermənistanın keçmiş baş naziri Tiqran Sarkisyan tezliklə ölkəyə geri qayıtmağa hazırlaşır.**

Məlumata görə, o geri döndükdən sonra siyasi proseslərdə aktiv iştirak edəcək:"2020-ci ilin fevralında Sarkisyanın Avrasiya İttifaqına sədrliyi bitəcək və Avrasiya İttifaqında onun heç bir işi qalmayacaq. Sabiq baş nazir siyasətə qayıdacaq. Hakimiyyət belə proqnozlaşdırır ki, Ermənistana qayıdan Tiqran Sarkisyan aktiv şəkildə siyasi proseslərə cəlb olunacaq". Bununla yanaşı, Sarkisyanın geri qayıtmasından sonra hakimiyyətin ona qarşı hücuma keçəcəyi, onun baş nazirliyi dönəmi ilə bağlı cinayət işinin açılmasının gündəmə gətiriləcəyi vurğulanıb. "Qarabağ klanı"nın da Tiqran Sarkisyanın yanında yer alması gözlənilən sayılır. "Past" qəzeti yazır ki, bunlar artan sosial problemlər fonunda baş nazir Nikol Paşinyan üçün ciddi problemə çevrilə bilər: "Paşinyan müxalif bir millət vəkili olduğu dövrdə onun çıxışının hər biri reytinqini yüksəldirdi. Baxmayaraq ki, bu çıxışların əksəriyyəti sadəcə pafoslu tənqid idi və yumşaq desək, həmişə əsaslandırılmamış olurdu. Amma 2018-ci ildə hakimiyyət dəyişikliyindən sonra Ermənistan tam əks bir reallıq mənzərəsi ilə qarşılaşıb. Paşinyanın hər bir canlı yayımı, hər bir "Facebook" yazısı, hər mətbuat konfransı və hər çıxışı ardıcıl olaraq reytinqini və xalq arasında etimadını aşağı salır.

Ekspertlər qeyd edir ki, bunun üçün bir neçə əsas səbəb var, bunlardan biri həyəcan anı dalğasında əsassız ifadələrin çox olmasıdır. Xüsusilə tam bir il əvvəl Paşinyan Ermənistanda xarici agent olan siyasətçilərin olduğunu açıqlayıb. Bu çox təhlükəli və məsuliyyətli bir bəyanat idi. Ancaq bir il ərzində ən azı bir iş belə hüquq-mühafizə orqanları tərəfindən açıqlanmayıb. Zaman-zaman "cinayətkarlar", "talançılar" və oxşar ümumi xüsusiyyətləri eşitmək artıq adi hal olub. Lakin Qafandakı mətbuat konfransında "dövlətə xəyanət" termini də istifadə edildi. Bu artıq ciddi ittihamdır, çünki Cinayət Məcəlləsində bu termin dəqiq müəyyən edilib.



Əslində, bu cür ifadələr halında hər kəs, xüsusən də dövlət başçısı çox diqqətli olmalıdır, çünki hətta mücərrəddə, subyektiv fikirlər belə onları sübut etməyin əhəmiyyətini azaltmır. Lakin bu qədər əsaslı ittihamlar irəli sürüldüyü təqdirdə səbəb və nəticələrin olmaması sonda hər hansı bir sözə inamın və etimadın itirilməsinə, ardınca isə itkiyə səbəb olacaq. Belə vəziyyətdə Paşinyan hakimiyyəti itirə biləcəyinin, rəqiblərinin isə daha mütəşəkkil formada hərəkət edəcəyinin hələ də fərqində deyil".

Bundan əlavə qeyd olunur ki, hadisələr indiki templə davam etsə, Paşinyan cari ildə devrilə bilər. Maraqlıdır ki, Ermənistanın eks-prezidenti Robert Köçəryan da eyni proqnozla çıxış edir: "Hər kəsə aydındır ki, cəmiyyətdə eyforiya başa çatıb, amma bu güclü eyforiyanın altında formalaşan hakimiyyət hələ də qalıb. Parlament, gözlənildiyi kimi, öz funksiyalarını icra etmək gücündə deyil. Siyasi proseslər parlamentdən kənarda gedir. 2020-ci ildə parlamentin formatı yekun olaraq ictimai ovqatı əks etdirməyi dayandıracaq ki, bu da legitimliyin itirilməsi demək olacaq. Bu, növbədənkənar parlament seçkisinin keçirilməsilə bağlı siyasi tələbin formalaşmasına gətirib çıxaracaq. Bütün bunlar ölkədə sosial-iqtisadi situasiyanın pisləşməsi fonunda gerçəkləşəcək. Növbədənkənar seçkinin keçirilməsi siyasi proseslərin intensivliyindən, hakim fraksiyanın stabilliyindən, hakimiyyətin səhvlərindən asılı olacaq". Erməni mediası daha bir məqama da diqqət çəkərək yazır ki, güc strukturları da Paşinyana qarşı çıxır və belə vəziyyət baş nazir üçün ciddi təhdid yaradır. Erməni politoloq Qaqik Hambaryan isə bildirir ki, Paşinyanın güc strukturlarını ləkələməsi onların səbrini daşırıb. Onun sözlərinə görə, yanvarın 28-də İrəvanda baş vermiş müxalif baxışları olan xadimlərin həbs olunması və onların dərhal azad edilməsi Paşinyanın oyunbazlığı olsa da, güc strukturlarını pis vəziyyətə qoyub: "Paşinyan tərəfindən bütün bunlar qəsdən və məqsədli şəkildə edilir. O, güc strukturlarının - Milli Təhlükəsizlik Xidməti və Ermənistan Polisinin ləkələnməsi siyasətini cəmiyyətin gözləri qarşısında önə çəkir. Əvvəlcə o, bu strukturların xarizmatik rəhbərlərindən - böyük rəğbət bəslənilən Artur Vanetsyan və Valeri Osipyandan qurtuldu. Sonra Osipyanın ləkələnməsi prosesinə başladı. "Sasna Tsrer"in məhkəmə iclası zamanı müttəhimlərdən biri Ermənistanın polis rəisini uşaq adlandıranda və bunun üçün cəzalandırılmayanda Osipyanı "pisləməyə" başladılar". Ermənistan Milli Təhlükəsizlik Xidmətinin direktorunun sabiq müavini Qurqen Yegiazaryan burada Paşinyana bağlı Sorosçu qüvvələrin də az rol oynamadığını qeyd edir: "Faktdır ki, Konstitusiya Məhkəməsi ətrafında yaranmış vəziyyət İstanbul konvensiyası ilə də birbaşa bağlılığa malikdir. Bunların sorosçuların timsalında ən güclü köməkçiləri var. Sorosçular Avropada bunların lehinə işləyir və vəziyyətimizi çətinləşdirirlər. Hələ sorosçuların Ermənistanı işğal etdiyini demirəm". O qeyd edib ki, sorosçular hakimiyyətdə ən ciddi faizi təşkil edir, onlar hər yerdədirlər: "Məsələn, Vanetsyanın üzərinə hücuma baxın, o, Sorosa qarşıdır.

Bu səbəbdən Paşinyanın düşməni oldu. Amma Nikol, bil ki, hər şey bumeranqdır. 2008-ci ildə bizi götürəndə, evlərimizi axtaranda, həbsxanadan çıxdıqdan sonra dedim: "Serj, yanıldın, bu bumeranqdır, sabah ədalətsiz olsa belə sənin arxandan gələcəklər". İndi bunu deyirəm: Robert Köçəryan və digərləri insandır, onları həbsxana ilə qorxutmayacaqsınız, lakin presedent yaranır, sabah bumeranq sənin arxandan gələcək, Nikol. Nə əkərsən, onu da biçərsən". Ekspert bildirir ki, güc qurumlarının Paşinyanın rəqibləri ilə birləşməsi mövcud hakimiyyətin sonunu gətirəcək.

***Nahid SALAYEV***

# Bakı Tekstil Fabriki Bakı Tikiş Evinin məktəbli forma monopoliyası ilə mübarizəyə başladı...

**Uzun illərdir geniş müzakirə predmetinə çevrilən məktəbli geyimləri mövzusu bu gün də öz aktuallığını qoruyub saxlayır. Məlum olduğu kimi, keçən il məktəbli formalarının hazırlanması üzrə Təhsil Nazirliyində işçi qrupu yaradılıb. İşçi qrupunun əsas vəzifələrindən biri yeni məktəbli geyimləri standartını yaratmaqdır.**



***Səkinə Babayeva:** "Təhsil Nazirliyinin yeni müasir məktəbli formalarının hazırlanması barədə qərarı alqışlanandır. Amma..."*

***Eyyub Hüseynov:** "Şirkətlərin elan olunmuş standartlara uyğun formaları tikmək üçün səlahiyyətləri olmalıdır"*

***Təhsil Nazirliyi yanında İctimai Şuranın nümayəndələri:** "Təhsil Nazirliyi də bəyan edib ki, məktəbli formalarının hansı tikiş müəssisəsi tərəfindən tikilməsi..."*

İşçi qrupu həm də növbəti tədris ili üçün tamamilə yeni dizaynda, rəng çeşidində hazırlanacaq məktəbli formalarının keyfiyyəti ilə bağlı məsələyə nəzarət edəcək. Bildiyimiz kimi, son illər Təhsil Nazirliyinin qərarı ilə məktəbli geyimləri Bakı Tikiş Evinə həvalə edilib və bu işi sözügedən qurum həyata keçirir. Bakı Tikiş Evinin istehsal etdiyi məktəbli geyimlərinin keyfiyyəti barədə daim valideyn narazılıqları olub.

Yanvarın 31-də Bakı Tekstil Fabrikinin rəhbəri Səkinə Babayevanın, Təhsil Nazirliyi yanında İctimai Şuranın sədr müavini və məsul katibinin, eləcə də Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynovun iştirakı ilə "Sputnik" Azərbaycan Multimedia Mətbuat Mərkəzində məktəbli geyimləri ilə bağlı tədbir keçirildi. Tədbirdə bildirildi ki, yeni məktəbli formasının hazırlanması ilə bağlı Təhsil Nazirliyində işçi qrupu yaradılıb və həmin işçi qrupuna Bakı Tikiş Evinin (BTE) modelyeri, eləcə də ictimaiyyət nümayəndələri daxil ediliblər. İşçi qrupunda məktəbli formasının ictimai müzakirəsi aparılıb. Bu gün həmin müzakirənin son mərhələsidir.

Bakı Tekstil Fabrikinin rəhbəri S.Babayeva bildirdi ki, yalnız Bakı Tikiş Evinin deyil, rəhbərlik etdiyi fabrikin məktəblilər üçün tikdiyi çeşidli, rəngarəng formaların da məktəblərdə tətbiqinə geniş şərait yaradılmalıdır. S.Babayeva nəzərə çatdırdı ki, o, çoxnövlü məktəbli formalarının tikilişi ilə bağlı böyük təcrübəyə malik olduğundan, həmin işçi qrupunda təmsil olunmaq üçün dəfələrlə cəhd edib. Buna baxmayaraq, işçi qrupu ilə əlaqə yarada, öz təkliflərini təqdim edə bilməyib, bu səbəbdən də İctimai Şuraya üz tutub. İşçi qrupunun Bakı Tekstil Fabrikinin də geyim çeşidlərini nəzərə almalı olduğunu deyən S.Babayeva qeyd etdi ki, bununla bağlı Təhsil Nazirliyi yanında İctimai Şuraya müraciət edib. Onun sözlərinə görə, Bakı Tikiş Evi məktəbli formasını inhisarda saxlayır və başqa bir fabrikin bu sahəyə daxil olmasına maneçilik törədir.

S.Babayeva bildirdi ki, uzun illərdir məktəbli forması istehsal etmək təcrübəsinə malik olan Bakı Tekstil Fabriki də bu işə cəlb edilməlidir. "Siz qeyd etdiniz ki, bu gün məktəbli formalarının hazırlanması ilə bağlı aparılan ictimai müzakirənin son mərhələsidir. Amma mən ölkədə çoxnövlü məktəbli formasının tikilişi ilə bağlı böyük təcrübəyə malik bir fabrikin direktoru kimi yeni məktəbli formalarının hazırlanması üçün dizaynların və digər təkliflərin verilməsində iştirak etməmişəm. Baxmayaraq ki, buna dəfələrlə cəhd etmişəm. Amma həmin işçi qrupu ilə əlaqə yarada bilməmişəm. Sonra öyrəndim ki, işçi qrupunun ictimai müzakirəyə çıxardığı məktəbli formaları bizim illərdir tətbiq etdiyimiz, Şirvan və digər bölgələrdəki məktəblilərə tikdiyimiz formalardır. Əlimizdə bunu təsdiq edən sübutlar var. Buna baxmayaraq, hansısa maraqlar üzərindən bizim tətbiq etdiyimiz formaların plagiatının BTE tərəfindən yeni bir məktəbli forması modeli kimi təqdim edilməsinə göz yumulub" - deyə S.Babayeva vurğuladı. Onun fikrincə, Azərbaycan məktəblilərinin geyimlərinin gigiyenik tələblərə cavab verməsi, onların müasir və dünyəvi olması vacibdir. "Avropa və Asiyanın mərkəzində yaşadığımız üçün bizim övladlarımız daim inkişaf edir və daha gözəl geyim məhsulları geyməyə meyl edirlər. Uzun illərin təcrübəsi göstərdi ki, məktəbli təkcə məktəbi bəzəmir, həm də küçələrimizi bəzəyir, bu baxımdan onların geyimlərinin estetik gözəlliyi də vacibdir. "Made in Azərbaycan" brendinin inkişaf etməsi məktəblilərin yeni dizaynda formalar geyməsinə təsir göstərir. Biz ölkədə 1998-ci ildən başlayaraq məktəbli geyimlərinin inkişafını həyata keçirən ilk fabriklərdənik. Bizim fabrik məktəbli geyimlərinin çoxnövlüyünü təbliğ edən yeganə fabrikdir. Bizim 78 növdən, 296 çeşiddən artıq məhsulumuz var ki, biz bunları milli standartlara uyğun istehsal edirik. Birnövçülük başqa bir şeydir, çoxnövlülük isə çoxçeşidlilikdir və burada standartların qorunması vacib amillərdən biridir".

S.Babayevanın qeyd etdiyinə görə, 1.800 min şagirdin məktəbə getdiyini nəzərə alsaq, onların məktəbli formaları ilə təmin edilməsi üçün 9 fabrik lazımdır. Onun sözlərinə görə, bəzi lisey və məktəblərdə rəhbərlik etdiyi şirkətin geyimlərindən istifadə olunur. "Biz öz çeşidli məhsullarımızı Təhsil Nazirliyi yanında İctimai Şuraya təqdim etmişik. Bu məktəbli geyim çeşidləri 10 ildir müxtəlif lisey və məktəblərin şagirdləri tərəfindən geyinilir. Bakı Tikiş Evi bir, Bakı Tekstil Fabriki isə çoxnövlük üzrə öz standartlarını təqdim edir. Çox arzu edərdim ki, məktəbli geyimləri üzrə yaradılan işçi qrupunda yalnız Bakı Tikiş Evi deyil, Bakı Tekstil Fabriki və digər fabriklərin də yeni dizaynlı məktəbli formalarına diqqət ayrılsın və onlar da nəzərdən keçirilsin" - deyə S.Babayeva bildirdi.

S.Babayevanın dediyinə görə, ən böyük narahatlığı isə məktəbli formalarının hazırlanmasının bir tikiş müəssisəsinə həvalə olunmasıdır: "Təhsil Nazirliyinin yeni müasir məktəbli formalarının hazırlanması barədə qərarı alqışlanandır. Amma çox təəssüf ki, bəzi maraqlı şəxslər məktəbli formasının tikilişini yenidən bir tikiş müəssisəsinin monopoliyasına vermək istəyirlər".

Sonra çıxış edən Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov məktəbli formalarının hazırlanması ilə bağlı aparılan ictimai müzakirənin şəffaf keçirilməli olduğunu söylədi: "İndi biz bilirik ki, belə bir ictimai müzakirə aparılıb. Məktəbli formalarının hazırlanması ilə bağlı məsələdə ictimai nəzarət təmin olunmalıdır. Bu işi bir tikiş müəssisəsinə həvalə etmək yolverilməzdir. Bu məsələ ilə bağlı yaradılan işçi qrupunda da şəffaflıq təmin edilməli idi. Bu qrupun yalnız bir tikiş müəssisəsinin təqdim etdiyi forma modellərini ictimai müzakirəyə çıxarması doğru deyil. Belə bir ictimai müzakirə aparılırdısa, bütün tikiş müəssisələrinə öz modellərini təqdim etmək üçün şərait yaradılmalı idi. Təhsil Nazirliyinin adı hazırda şagirdlərin geyindiyi məktəbli formalarında maraqlı tərəf kimi hallanır. Yenidən bunun təkrarlanmasına yol vermək olmaz. Məktəbli formaları yenidən bir müəssisə tərəfindən hazırlanacaqsa, burada sözsüz ki, istehlakçı hüququ pozulacaq. Həm formanın keyfiyyətində problem olacaq, həmçinin, qiymət diktəsinə gətirib çıxaracaq. İstehlakçılardan gələn məlumatlar Bakı Tikiş Evinin bazarda hökmran mövqe tutduğunu göstərir. Digər şirkətlər də uyğun məktəbli formaları tikməyə cəhd göstərirlər. Şirkətlərin elan olunmuş standartlara uyğun formaları tikmək üçün səlahiyyətləri olmalıdır. Bu, bazarda keyfiyyətin yüksəlməsi, qiymətin düşməsi ilə nəticələnə bilər. BTE-nin bazarda inhisarçı olaraq qalması bazar prinsiplərinə uyğun deyil. Digər fabriklər də bu formaların tikilməsi hüququna malik olmalıdırlar. Bu da reallıqdır ki, bəzi iş adamları xarici ölkələrdən keyfiyyətsiz parçalar gətirirlər. Bu parçalardan hazırlanan geyimlər insan sağlamlığı üçün təhlükəlidir".

Təhsil Nazirliyi yanında İctimai Şuranın nümayəndələri Nadir İsrafilov və İlqar Orucov isə məsələnin şuranın diqqətində saxlanılacağını bildirdilər. N.İsrafilov bildirdi ki, Təhsil Nazirliyinin məktəbli formasının hazırlanmasında ictimai rəyi öyrənməsi müsbət haldır: "Bu məsələ Təhsil Nazirliyində müzakirə edildikdə bizim İctimai Şura yaranmamışdı. Bu gün "Sputnik" Azərbaycan Multimedia Mətbuat Mərkəzində belə bir tədbirin keçirilməsi ictimaiyyətin bu mövzuya diqqətini yenidən cəlb etdi. Biz də çalışacağıq ki, burada səsləndirilən fikirlərlə bağlı öz iclaslarımızda müzakirə aparaq. Təhsil Nazirliyi də bəyan edib ki, məktəbli formalarının hansı tikiş müəssisəsi tərəfindən tikilməsi onların səlahiyyətinə aid olan məsələ deyil. Amma, sözsüz ki, biz də onun tərəfdarıyıq ki, bu məsələdə şəffaflıq olsun. İşçi qrupu bir tikiş müəssisəsinin yox, bu işdə təcrübəsi olan digər müəssisələrin də təkliflərini qəbul etsin".

İlqar Orucov isə məktəbli formalarının hazırlanması ilə bağlı müzakirələrdə şəffaflığın təmin olunmasının vacibliyini vurğuladı. O bildirdi ki, İctimai Şura bu məsələni müzakirə etdikdən sonra yekun rəy və təkliflər Təhsil nazirinin də diqqətinə çatdırılacaq.

***İradə SARIYEVA***

## Təhlükəli "Çin virusu" Bakıya da çatdı...

*Çindən gələnlər üçün Azərbaycanda xüsusi tibb müəssisəsi ayrıldı, üç nəfər Klinik Tibbi Mərkəzə yerləşdirildi, "Sədərək" bazarına Çindən mal gətirilməsi dayandırıldı*

**Koronavirusla əlaqədar Çinin Uhan şəhərindən Azərbaycana gələnlərin sərhəd-keçid məntəqələrində yoxlanışından sonra onların tibbi müşahidədə saxlanması üçün xüsusi tibb müəssisəsi ayrılıb.**



Səhiyyə Nazirliyindən "Trend"ə verilən məlumata görə, yanvar ayının 30-da Uhan şəhərindən Azərbaycana gələn bir neçə tələbə həmin tibb müəssəsində həkim nəzarətindədir. Həkimlərin verdiyi məlumata əsasən, tələbələrin heç birində koronavirus xəstəliyinin əlamətləri yoxdur. Karantin müddəti bitdikdən sonra tələbələr evə buraxılacaq:"Ümumdünya Səhiyyə Təşkilatının Bakı ofisi, Səhiyyə Nazirliyi və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi bildirir ki, Çində yayılan koronavirus Azərbaycan ərazisində aşkarlanmayıb".

Bakıda koronavirusa yoluxmada şübhəli bilinən 3 nəfər 1 saylı Kliniki Tibbi Mərkəzə yerləşdirilib. Bu barədə agentliyə açıqlamasında Mərkəzin baş həkimi Ədalət Dadaşov məlumat verib.

Onun sözlərinə görə, həmin şəxslərdən bir nəfər Çində təhsil alan azərbaycanlı, 1 nəfər Bakı Dövlət Universitetinin amerikaşünaslıq fakultəsində təhsil alan Çin vətəndaşı, digər şəxs isə Krasnoyarsk vilayətində yaşayan və hazırda Bakıda olan azərbaycanlıdır: "Çində təhsil alan azərbaycanlı və Krasnoyarsk vilayətindən gələn şəxs yoxlanıb, analizlərin cavabları mənfi gəldiyi üçün evə buraxılıb. Yanvarın 27-də mərkəzə daxil olan çinli tələbə isə hazırda müayinəsini davam etdirir. Onun da analizlərinin cavabı mənfi gəlib, özünü normal hiss edir və yaxın günlərdə evə buraxılacaq".

Çin Xalq Respublikasından "Sədərək" Ticarət Mərkəzinə malların gətirilməsi dayanıb. Bu barədə "Sədərək" Ticarət Mərkəzinin mətbuat xidmətinin rəhbəri Mikayıl Qədimov bildirib. Onun sözlərinə görə, hazırda Çindən adıçəkilən mərkəzə mal gətirilmir: "Ümumilikdə, hazırda Çin mallarının mövsümü deyil. Əsas mövsüm mart-aprel aylarından başlanır. Daha sonra isə avqust-sentyabr aylarından dekabr ayına qədər bazara Çin malları gəlir. Yanvar ayı Çində bayram olduğu üçün bazara mal gətirilmir".

Mərkəz rəsmisi deyib ki, hazırda bazarda tək-tək Çin malları satılır ki, həmin mallar da noyabr-dekabr aylarından qalan və ya həmin aylarda Çindən göndərilən, lakin yolda gecikən mallardır: "Hazırda bizim bazara Çindən heç bir mal gəlmir. Dekabr ayından sonra bazara Çindən mal gətirilməsi dayanıb". M. Qədimov deyir ki, bu ərəfələrdə bazarda alver də zəif olur.

# "Çin" virusu "Sədərək" bazarını da çökdürdü...

**Çini ağuşuna alan və bütün dünyanı təşvişə salan koronavirus təhlükəsi hər kəsi həyəcanlandırır. Dünyanı vahiməyə salan koronavirus 90 min insan arasında aşkarlanıb. Virus sürətlə qonşu ölkələrə yayılır. Hər bir ölkə virusdan qorunmaq üçün qabaqlayıcı tədbirlər görməyə başlayıb.**

***Fuad İbrahimli:*** *"...bu bazarda satılan malların əksəriyyəti Çin istehsalıdır"*

***Satıcı Samir Rzayev:*** *"Çində xəstəliyin tüğyan etməsi xəbəri yayılan gündən alıcılar "Sədərək" tərəfə yaxın gəlmir"*

Ölkəmizdə bu istiqamətdə ciddi işlər görülür. Xarici ölkələrdən ölkəmizə gələn vətəndaşlar xüsusi qaydada yoxlanılır.

Bununla yanaşı, sadə vətəndaşlar da müəyyən qabaqlayıcı tədbirlər görməyə başlayıblar. Belə ki, Çin mallarının ən çox satıldığı ərazilərə alıcılar artıq yaxın durmurlar. Bu hal daha çox "Sədərək" Ticarət Mərkəzində yaşanır. Məlumdur ki, bu virusun əsas zərər verəcəyi yerlərdən biri "Sədərək" Ticarət Mərkəzi sayılır. Çünki burada satılan əşyaların, geyimlərin əksəriyyətinin Çindən gətirildiyi heç kimə sirr deyil.

Bu səbəbdən də son günlər "Sədərək" Ticarət Mərkəzinə alış-veriş üçün gedənlərin sayı azalıb. Satıcılar bildirirlər ki, bir müddət əvvəl insan əlindən tərpənməyə yer olmayan "Sədərək"də bu gün fərqli mənzərə hökm sürür. Karqo şirkətlərinin olduğu ərazilərdə fəhlələr iş görmək əvəzinə, öz aralarında söhbət etməklə günlərini keçirirlər.

Satıcı Samir Rzayev bizimlə söhbətində bildirdi ki, əvvəllər Çin Karqosunda heç vaxt iş dayanmırdı. Amma bax, indi heç kim işləmir: "Nə maşın gəlir, nə yük boşalır. Çində xəstəlik yayılıb deyə, oradan mal gətirməyə icazə vermirlər. Xəstəlik xəbəri yayılan gündən alıcılar "Sədərək" tərəfə yaxın gəlmirlər. Son günlər gün ərzində 1-2 mal satılanda sevinirik ki, nəsə sata bildik. Koronavirus ölkəmizdə yayılmasa da, bizim bazarı məhv edib".

Ekspertlər bildirirlər ki, Çində yayılan dəhşətli virus Çin mallarının satıldığı hər bir ərazidə xaos yaradır. İnsanlar geyim, əşya, hər hansı bir məhsul vasitəsilə virusun yayılacağından ehtiyat edərək "Sədərək" və digər Çin mallarının satıldığı məkanlara yollanmırlar. Bu hal iqtisadiyyata, istər-istəməz, təsir edir.

İqtisadçı-ekspert Fuad İbrahimli qeyd etdi ki, koronavirus təhlükəsi genişlənərsə, vəziyyət ciddiləşərsə, dövlətlər karantin rejimi tətbiq edəcəklər və Çindən idxal məhsullarına qadağalar qoyulacaq. Artıq bu hal özünü göstərməyə başlayıb. Bir sıra dövlətlər Çinlə ticarət əməliyyatlarına qadağa qoyurlar. Hazırkı vəziyyət əmtəə və pul birjalarında, qiymətli kağızlar bazarında öz təsirini göstərməyə başlayıb. Bu da dünya iqtisadiyyatını təhdid edir. Bilirsiniz ki, Çin bir çox məşhur brendlə - istər nanotexnologiyalar olsun, istər mebel, avtomobil istehsalı və s. dünya bazarında liderdir. Amma koronavirus dəhşəti nəhəng şirkətlərin səhmlərinin ucuzlaşmasına gətirib çıxaracaq. Mümkün itkilərdən qaçmaq üçün səhmdarlar səhmlərini dərhal satışa çıxarır, bu da dünya birjalarında ucuzlaşmaya, səhm və qiymətli kağızların dəyərdən düşməsinə səbəb olur. Dünya bazarında qeyri-ərzaq mallarının 90 faizinin istehsalçısı Çindir. Bakıda adi mağazaya, alış-veriş mərkəzinə gedin, görün nə qədər Çin istehsalı məhsul var.



Çinin əmtəə bazarı çox-çeşidlidir. Çindəki virus bizi ərzaq məhsulları ilə təhdid edə bilməz. Amma qeyri-ərzaq mallarının qıtlığı ola bilər. Çünki onlar gündəlik tələbat mallarıdır və bu malların yerli istehsalı da yoxdur. Gündəlik tələbat mallarının idxalına qadağa qoyulacaqsa, əlbəttə, bazarda qıtlıq yaranacaq. Qıtlıq yaranacağı təqdirdə, əlbəttə ki, bu, qiymət artımına da təsir göstərəcək. Çıxış yolu təkcə indiki zaman üçün demirəm, bütün zamanlar üçün yerli istehsalı artırmaq və idxaldan asılılığı azaltmaqdır".

**Həmsöhbətimiz onu da əlavə etdi ki, "Sədərək" Ticarət Mərkəzində hazırda durğunluq yaşanması normaldır. Məlumdur ki, Çin mallarının ən çox satıldığı ünvan adıçəkilən ticarət mərkəzidir. Çin mallarının satıldığı ərazilərə insanlar virusa yoluxmamaq üçün bir müddət getməyəcəklər.**

***Günel CƏLİLOVA***

# İcbari tibbi sığorta həkimlərlə dərman firmalarının qeyri-şəffaf işbirliyinə son qoya biləcəkmi...

**"İcbari tibbi sığortanın tətbiqi ilə əlaqədar olaraq dərman firmalarının əməkdaşları birbaşa həkimlərlə görüşə buraxılmır".**

*"...bütün ölkə üzrə tətbiqi gerçək olandan sonra həkimlərin dərman firmaları ilə əməkdaşlığına son qoyula bilər"*

***Adil Qeybulla:*** *"Həkimlərin əksəriyyəti firmaların təklif etdiyi dərmanlarla işləyir"*

Bunu "KİV nümayəndələrinin icbari tibbi sığorta sahəsində məlumatlılığının artırılması" mövzusunda keçirilən təlimdə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin (İTSDA) Tibbi iddialar departamentinin rəhbəri Vüqar Qurbanov dərman firmaları ilə həkimlərin işbirliyi məsələsinə münasibət bildirərkən deyib.

O qeyd edib ki, icbari tibbi sığortanın tətbiq edildiyi pilot ərazilərdə mühafizə sistemi var: "Ona görə də tərəfimizdən bu kimi hallara yol verilmir. Amma hər hansı dərman şirkəti yeni məhsulunu tibb işçilərinə təqdim etmək istəyərsə, bunun üçün şərait yaradılır. Ümumilikdə, dərman firmalarının əməkdaşlarının həkimlər, tibb işçiləri ilə indvidual görüşlərinə icazə verilmir".

Ekspertlərin fikrincə, icbari tibbi sığortanın tətbiq olunduğu ərazilərdə, xəstəxanalarda həkimlərlə dərman firmalarının əməkdaşlığına son qoyulacaq.

Məsələ ilə bağlı fikir bildirən professor, həkim-ekspert Adil Qeybulla qeyd etdi ki, həkimlərin əksəriyyəti firmaların təklif etdiyi dərmanlarla işləyir. Dərmanların təyinatı müəyyən maraqlar əsasında aparılır: "Hesab edirəm ki, bu məsələ həll edilməlidir. Həkimlər dərman təyinatına xüsusi diqqət yetirsinlər. Məlumdur ki, ayrı-ayrı firmalar öz dərmanlarını satmaqda maraqlıdırlar".

Həmsöhbətimiz onu da vurğuladı ki, hər bir firma istəyir ki, onun dərmanı daha çox yazılsın. Bu bir kommersiya marağıdır. Çünki dərmanı ölkəyə idxal edən firmalar tibbi təyinatlı kommersiya müəssisələridir ki, onların da maraqları biznes maraqlarıdır. Ona görə də bu məsələlərə yanaşma təsəvvürləri bir az yanlışdır. Hesab edirəm ki, əsas məsələ Azərbaycanın




dərman bazarında keyfiyyətli dərmanların olmasıdır. Keyfiyyət parametrləri aşağı olan dərmanların Azərbaycana idxalına imkan verilməməlidir və insanlar bu dərmanlardan əziyyət çəkməməlidirlər.

Həkimlərin dərman firmaları ilə əməkdaşlığına son qoyulmasına gəlincə, həmsöhbətimiz bildirdi ki, icbari tibbi sığortanın bir sıra bölgə xəstəxanalarında deyil, bütün ölkə üzrə tətbiqi gerçək olandan sonra bu mümkün ola bilər

***Günel CƏLİLOVA***

**Elmi ictimaiyyətdə bürokratik əngəllərin mövcud olduğu qurumlardan biri kimi Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının adı tez-tez hallandırılır. Uzun illərdir Ali Attestasiya Komissiyasına qarşı müxtəlif ittihamlar irəli sürülür və bu qurumda elmlə məşğul olan insanların elmi iş müdafiə etməsinə ciddi əngəllər törədildiyi bildirilir.**




# Bir qrup fəlsəfə doktoru ilə Ali Attestasiya Komissiyasının arasında nə baş verir...

***Gülarə Tağızadə:** "...Siz özünüz sədrlə əlaqə saxlayın, onun razılığını alın, o mənə tapşırıq versin, sonra mən suallarınıza cavab verərəm"*

***İlqar Orucov:** "Burada problemlər bitməyib və hələ də bu qurumda islahatlara ehtiyac var"*

Yəni elə iddiaçı var ki, onun dissertasiya işi uzun illərdir müdafiəyə buraxılmır, belə insanların əvəzinə isə icra başçılarının, millət vəkillərinin, bəzi məmurların "yazdığı elmi iş"lər müdafiəyə buraxılır və onlara alimlik dərəcəsi verilir, əsl elm adamları isə illərlə gözləmə növbəsində can çürütməklə məşğul olurlar.

Məlum olduğu kimi, fəlsəfə doktorluğu elmi adı almaq üçün müzakirədən keçmiş dissertasiyaların Ali Attestasiya Komissiyası tərəfindən yenidən ilkin müzakirəyə qaytarılması qərarı bir çox gənc alimin narazılığına səbəb olub. Bu səbəbdən də bir qrup doktorant və dissertant Ali Attestasiya Komissiyasının qərarı ilə bağlı Prezident İlham Əliyevə (surəti ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyevaya) müraciət ünvanlayıb. Bir qrup doktorant və dissertantın Prezidentə ünvanladığı müraciətdə onlar Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasının Konstitusiyasına zidd qərar çıxarmasından və onun yaratdığı ciddi narahatlıqdan bəhs edirlər: "...Sizə bu məktubu yazmağımızın səbəbi Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasının Konstitusiyasına zidd qərar çıxarması və onun yaratdığı ciddi narahatlıqdır.

Nəzərinizə çatdıraq ki, biz tədqiqatçılar son zamanlar Sizin Azərbaycanda başlatdığınız islahatları, elmin inkişafı və stimullaşdırılması naminə atdığınız hər bir addımı yüksək dəyərləndirir, dəstəkləyir və bu aspektdə gələcəyə böyük ümidlə baxırıq. İmzaladığınız hər bir Fərman və Sərəncam gənc bir tədqiqatçı kimi bizi öz vəzifələrimizə daha məsuliyyətlə yanaşmağı zəruri edir.

Sizin 2019-cu il 11 iyun tarixli, 728 nömrəli Fərmanla təsdiq etdiyiniz "Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə" bütün parametrləri üzrə elmi inkişafın müasir tələblərinə cavab verdiyi, vətəndaşların hüquq və maraqlarına xidmət etdiyi halda, AAK-nın Rəyasət Heyətinin 13 dekabr 2019-cu il tarixli, 13-R nömrəli qərarı Prezident Fərmanına və Azərbaycan Respublikasının Konstitusiyasına uyğun gəlmir, elmin inkişafını stimullaşdırmır və vətəndaş hüquqlarını pozur. AAK-nın sözügedən qərarı mövcud qanunvericiliyə uyğun qanuni prosedurlardan keçmiş gənc alimlərin vəziyyətini süni surətdə ağırlaşdırır. Halbuki, Azərbaycan Respublikasının Konstitusiyasının 149-cu maddəsinin VII bəndində deyilir: "Fiziki və hüquqi şəxslərin hüquqi vəziyyətini yaxşılaşdıran, hüquq məsuliyyətini aradan qaldıran və ya yüngülləşdirən normativ-hüquqi aktların qüvvəsi geriyə şamil edilir. Başqa normative-hüquqi aktların qüvvəsi geriyə şamil edilmir".

Təəssüf doğuran məqamlardan biri də odur ki, AAK Rəyasət Heyəti vətəndaşların hüquqlarını pozan və vəziyyətlərini ağırlaşdıran qeyri-qanuni qərarına hüquqi don geyindirmək üçün hər bənddə "Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli, 728 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə"nin tələbləri nəzərə alınmaqla" ifadəsini təkrar edir. Əgər bizə Sizin köməyiniz olmasa, problemin nə vaxtsa qanuni yolla həll olunmasını düşünmək çətindir.

Möhtərəm cənab Prezident!

Biz, aşağıda imza edənlər AAK-nın Rəyasət Heyətinin Prezident Fərmanına və Azərbaycan Respublikasının Konstitusiyasına uyğun gəlməyən, elmin inkişafını stimullaşdırmayan, mövcud qanunvericiliyə uyğun qanuni prosedurlardan keçmiş tədqiqatçıların vəziyyətini süni surətdə ağırlaşdıran 13 dekabr 2019-cu il tarixli, 13-R nömrəli qərarı ilə pozulmuş hüquqlarımızın bərpasına kömək etməyinizi xahiş edir, göstərəcəyiniz dəstəyə görə bizi vicdanlı elm adamları və ümumən ictimaiyyət nümayəndələri adından Sizə əvvəlcədən sonsuz minnətdarlığımızı bildiririk".

Qeyd edək ki, ölkə başçısına sözügedən müraciəti Ağayeva Mənsurə Tiflis qızı (BDU), Alıyev Xətai Şahin oğlu (ADİU), Aliyeva Ülviyyə Xaliqverdi qızı (BDU), Almaz Həsrət İsmayıl qızı (ARTİ), Babayev Elvin Əliyar oğlu (AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu), Bağırova Nigar Xanlar qızı (ADU), Cahangirli Təbərrük Fərrux qızı (ADU), Cəfərova Anzulə Pərviz qızı (BDU), Cəfərzadə Vüsalə Nofəl qızı (BDU), Eyvazov Pərvin Eyvaz oğlu (BDU), Əhmədova Xəyalə Ramiz qızı (ATMU), Əhmədova Sevinc İslam qızı (ADPU), Əhmədova Zəhra Mirzəağa qızı ( BDU), Ələskərova Yeganə İlyas qızı (BDU), Əliyev İlham Baxış oğlu (BDU), Əliyeva Günel Surxay qızı (BDU), Əliyeva İradə Zülfəli qızı (AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu), Əliyeva Nəzrin Samir qızı (BDU), Əmrahova Lianna Hüsü qızı (AMEA Nəsimi adına Dilçilik İnstitutu), Əzimova Aidə Yaşar qızı ( BDU), Əzimzadə Yaqut Mustafa qızı (ARTİ), Fətəliyeva Nərminə Arif qızı (Xəzər Universiteti), Hacıyeva Ayğün Zahid qızı (AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu), Hüseynova Nailə İsmixan qızı (ADU), Xanalıyeva Aysel Fazil qızı (BDU), İbrahimova Dilbər Mustafa qızı (BDU), İskəndərova Sevda Məlik qızı (BDU), Kazımova Aytən Fizuli qızı ( ADU), Qasımov İlkin Çilingir oğlu (BMU), Qasımova Nərmin İsa qızı (BSU), Quliyeva Şəlalə Məhyəddin qızı (BDU), Qurbanova Mətanət Qəhrəman qızı (ARTİ), Qurbanova Rəna Oruc qızı (ARTİ), Mehdizadə Gülşən Kamal qızı (ADPU, onkoloji xəstəliklərdən əlil), Mehraliyeva Ülviyyə Tacir qızı (BDU), Məmmədəliyeva Leyla Fərhad qızı (Azərbaycan Universiteti), Məmmədova Sevil Eləsgər qızı (ADU), Mikayılova Könül Vaqif qızı (ARTİ), Milana Abbas Yunis qızı (Xəzər Universiteti), Mirzəyeva Aytəkin Rəfi qızı (BDU), Mollayeva Könül Rəşid qızı (ARTİ), Muradova Şəfa Qüdrət qızı (AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu), Əhmədova Aygün Mədət qızı (GDU), filologiya e.d. İ.Ə. Abbasov, filologiya e.d., professor H.M.Zərbəliyev, Rüstəmova Təranə Saleh qızı (AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu), Abbasova Elnurə Alim qızı (AMEA Nəsimi adına Dilçilik İnstitutu), Orucova Elnarə Məhərrəm qızı (ADPU), Önemli Mehmet (ARTİ), Rəcəbova Südabə Şəmsəddin qızı (AMEA Nəsimi adına Dilçilik İnstitutu), Sərdarova Mehriban Nağı qızı (ADPU), Sultanova Samirə Xəqani qızı (GDU), Fərəcov Anar Tofiq oğlu (BDU) imzalayıblar.

Qeyd edilənə görə, Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin 13 dekabr 2019-cu il tarixli qərarına əsasən, 11 iyun 2018 - 11 iyun 2019-cu il aralığında ilkin müzakirədən keçmiş işlərdən başqa, bütün dissertasiyalar yenidən ilkin müzakirədən keçirilməli, 11 iyun 2019-cu il tarixinədək elmi seminardan keçmiş hər bir dissertasiya işi isə yenidən seminardan keçirilməlidir.

Bu arada Ali Attestasiya Komissiyasının keçmiş əməkdaşları da bu qurumda gerçək bürokratik əngəllərin, korrupsiya hallarının olduğunu bildirirlər. Onlar qeyd edirlər ki, elmi işləri təkrarən ilkin müzakirəyə göndərilən iddiaçılar elm adamalarıdırlar. "Bunu mənəvi terror, insanlığa zidd addım" adlandıran alimlər qeyd edirlər ki, məqsəd əsl elm adamlarını illərlə süründürmək, deputatların, icra başçılarının, nazirlərin "elmi iş müdafiə" etməsinə şərait yaratmaqdır.

Prezidentə müraciət edənlər arasında elə elmi işçilər var ki, onlar 5-6 ildir dissertasiyalarının müdafiəyə buraxılacağı günü həsrətlə gözləyiblər, lakin birdən-birə onların işlərinin müzakirə edildikdən sonra təkrarən ilkin müzakirəyə göndərilməsi heç haldır.

Məsələyə Ali Attestasiya Komissiyasının da mövqeyini öyrənməyə cəhdlər etdik. Təsəvvür edin ki, bu təşkilatla telefon əlaqəsi saxlamağın özü böyük zəhmət tələb edir. Saatlarla zəng vurduqdan sonra Ali Attestasiya Komissiyasının Aparat rəhbəri Gülarə Tağızadə ilə əlaqə yarada bildik. Gülarə xanım bildirdi ki, o bu məsələyə münasibət bildirə bilməz. "Mən bu məsələyə özbaşına münasibət bildirə bilmərəm. Buna yalnız Ali Attestasiya Komissiyası sədrinin icazəsindən sonra münasibət bildirməyim mümkündür. Siz özünüz sədrlə əlaqə saxlayın, onun razılığını alın, o mənə tapşırıq versin, sonra mən suallarınıza cavab verərəm. Mən Rəyasət Heyətinin iclasına gecikirəm. Sağ olun" - deyə Gülarə xanım bizimlə sağollaşdı.

Təbii ki, nə qədər cəhdlər göstərsək də, Ali Attestasiya Komissiyasının qəbul otağı ilə əlaqə saxlaya bilmədik. Çünki telefonlar cavab vermir...

Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, Təhsil Nazirliyi yanında İctimai Şuranın məsul katibi, fizika-riyaziyyat elmləri üzrə fəlsəfə doktoru İlqar Orucov "Bakı-Xəbər"ə bildirdi ki, elmi ictimaiyyətdə Ali Attestasiya Komissiyasının müvafiq qərarı ilə bağlı ciddi narazılıqlar və narahatlıqlar var: "Bu onun nəticəsidir ki, bir qrup doktorant və dissertant Ali Attestasiya Komissiyasının qərarı ilə bağlı Prezident İlham Əliyevə müraciət edib. Onlar bu məsələdə ölkə başçısından kömək gözləyirlər. Hesab edirəm ki, qanunun geriyə qüvvəsi olmadığı kimi, Ali Attestasiya Komissiyasının da qanun qəbul olunduqdan sonra əvvəlki illərin iddiaçıları ilə bağlı bu cür tələbi tamamilə qanunsuzdur. Əslində, Ali Attestasiya Komissiyası elmi adların və dərəcələrin verilməsi ilə bağlı qanunun bu qurumun üzərində qoyduğu işlərlə məşğul olmalıdır, nəinki əvvəlki illərin iddiaçılarına qarşı bu cür absurd qərar verməklə. Məsələ ondan ibarətdir ki, o adamlar işlərini təqdim etdikləri dövrə uyğun olaraq qurublar. Belə təsəvvür yaranır ki, Ali Attestasiya Komissiyasının keçmiş rəhbərliyinin dövründə baş verən bütün neqativ halların heyfi indiyə qədər müdafiə etməmiş iddiaçılardan çıxılır. Mən Prezidentə müraciət edən gəncləri dəstəkləyirəm və hesab edirəm ki, Ali Attestasiya Komissiyası onlara qarşı ədalətsizlik etməməlidir. Sözün düzü, yeni sədr təyinatından sonra biz bu komissiyanın işinin daha obyektiv qurulacağını, eyni zamanda da iddiaçılar qarşısında qoyulan bürokratik tələblərin aradan qaldırılacağını gözləyirdik. Gözləyirdik ki, Ali Attestasiya Komissiyası plagiat işlərə qarşı mübarizə aparacaq, tanışlıqla, tapşırıqla, digər neqativ yollarla elmi ad alanların qarşısını alacaq, amma bunu görə bilmədik. Çox istərdim ki, müvafiq qurumlar Ali Attestasiya Komissiyasının rəhbərliyi ilə birgə bununla bağlı ədalətli mövqe ortaya qoysun, insanları, elm adamlarını incitməsinlər və elm adamlarına münasibətdə ədalətli olsunlar. Çox maraqlı nüans vardı burda. Ali Attestasiya Komissiyasının keçmiş rəhbərliyinin dövründə belə bir şey vardı. Millət vəkilləri, məmurlar, onların övladları çox qısa zaman ərzində gəlib elmi işlərinin təsdiqini alırdılar, amma kasıblar, adamı olmayanlar illərlə süründürülər. Biz də düşünürdük ki, yeni rəhbərlik bunun qarşısını alacaq və komissiyanın bürokratik əngəllər yaradan tərkibini dəyişəcək, onlar yeni nəsil obyektiv insanlarla əvəz ediləcək, amma biz bunu görə bilmədik. Ali Attestasiya Komissiyasının fəlsəfə doktorluğu elmi adı almaq üçün müzakirədən keçmiş dissertasiyaların yenidən ilkin müzakirəyə qaytarılması barədə qərarı onu göstərir ki, burada problemlər bitməyib və hələ də bu qurumda islahatlara ehtiyac var. Çox təəssüf edirəm ki, burada işləyən insanların adi məktublara belə cavab vermək mədəniyyəti yoxdur. Onlara edilən müraciətlərə cavab vermirlər. Elmi bürokratikləşdirmək olmaz".

İ.Orucov qeyd etdi ki, onlar Ali Attestasiya Komissiyasını çox zaman ona görə müdafiə ediblər ki, bu qurum bir süzgəc olsun və bu qurumdan formal işlər müdafiəyə buraxılmasın, plagiatlığa son qoyulsun, neqativ hallar aradan qaldırılsın. "Biz fikirləşmirdik ki, bu qurumda işləyənlər özlərini məmur kimi aparacaqlar və Ali Attestasiya Komissiyasında əsl elm adamlarına qarşı ciddi əngəllər yaradacaqlar. Əlbəttə, bu yolverilməzdir. Adından göründüyü kimi, Ali Attestasiya Komissiyası çox mötəbər bir qurum olmalıdır. Bu qurum Azərbaycan Respublikası Prezidentinin yanında fəaliyyət göstərdiklərinin fərqində olmalıdır. Ölkə başçısının tələblərinə uyğun olaraq, insanlarla çox mehriban, şəffaf olmalıdırlar, fəaliyyətlərində yalnız qanunun tələblərini ortaya qoymalıdırlar, indiki qanunları əvvəlki illərə şamil etməməlidirlər və öz fəaliyyətlərini bu şəkildə qurmalıdırlar" - deyə İ.Orucov qeyd etdi.

Ali Attestasiya Komissiyası məsələyə mövqe bildirmək istərsə, bu qurumun da mövqeyini əks etdirə bilərik.

***İradə SARIYEVA***

# Ünvanlı sosial yardım şərtlərində mürəkkəblik hardadır - Nazirlik yeni addımlara hazırlaşır

**Ünvanlı dövlət sosial yardımı proqramının əlçatanlılığının artırılması üçün qanunvericiliyə dəyişikliklər edilir. Artıq "Ünvanlı dövlət sosial yardımı haqqında" Qanunda və "Ünvanlı dövlət sosial yardımın alınması üçün müraciət edilməsi, onun təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi qaydaları"nda dəyişiklik layihəsi hökumətə təqdim olunub.**



## *Natiq Cəfərli: "Azərbaycanda əhalinin rifahının yaxşılaşdırılması istiqamətində sosial islahatlar davam edir"*

Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Sosial təminat şöbəsinin müdiri Babək Hüseynov media nümayəndələrinə məlumat verib. O qeyd edib ki, yeni qanunvericiliklə ailə tərkibində baş verən dəyişiklik barədə məlumat verilməsinə ehtiyac olmayacaq: "Həmçinin, götürülən kreditlər də ünvanlı sosial yardım almağa manea törətməyəcək. Artıq vətəndaşlar bu barədə nazirliyə məlumat verməli olmayacaqlar".

Ünvanlı sosial yardım almaq üçün şərtlərin sadələşdirilməsi ekspertlər tərəfindən də müsbət qiymətləndirilir.

İqtisadçı-ekspert Natiq Cəfərli bildirdi ki, Azərbaycanda əhalinin rifahının yaxşılaşdırılması istiqamətində sosial islahatlar davam edir. Sosial yardımların verilməsində insan faktoru daha çox önə çıxırdı. Yerlərdə sövdələşmələr, müxtəlif qanunsuz yollarla sosial müavinətlərin təyinatı həyata keçirilirdi. Müraciətlər, qeydiyyatla bağlı ciddi problemlər var idi. İlkin olaraq, müraciətin sadələşdirilməsi, insan faktorunun tamamilə aradan götürülməsi müsbət addımdır: "Ünvanlı sosial yardım almaq üçün şərtlərin asanlaşdırılması aztəminatlı ailələrin maddi vəziyyətinin yaxşılaşdırılmasına səbəb olacaq. Artıq ailələr çoxlu sayda sənəd toplamayacaq. Lazımi bir neçə sənəd kifayət edəcək ki, həmin ailəyə ünvanlı sosial yardım ayrılsın. Məlumdur ki, əvvəllər krediti olan şəxslərə ünvanlı sosial yardım verilmirdi. Ancaq indi bunun ləğv olunması ehtiyac içində olan ailələrin sosial durumunun inkişaf etməsinə səbəb olacaq".

*"Ünvanlı sosial yardım almaq üçün şərtlərin asanlaşdırılması..."*

***Günel CƏLİLOVA***

# DİM-in xarici dildən doktorantura imtahanı ətrafında söz-söhbətlər böyüyür

**Yanvarın 26-da Dövlət İmtaham Mərkəzi (DİM) tərəfindən doktoranturaya və dissertanturaya xarici dil üzrə keçirilən qəbul imtahanlarının nəticələri hələ açıqlanmasa da, namizədlər iddia edirlər ki, imtahanlar qeyri-şəffaf keçib, proses zamanı qayda-qanun pozuntularına yol verilməklə yanaşı, onlara haqsızlıqlar da olub.**




## *Xanlar Xanlarzadə: "...42 müraciət daxil olub və hər kəsə müvafiq izahatlar verilib"*

Son günlər mətbuatda geniş müzakirəyə səbəb olan bu məsələdə haqlı tərəf kimdir? Doktoranturaya və dissertanturaya xarici dil üzrə keçirilən imtahanda neqativ halların baş verdiyi ilə bağlı iddialar nə dərəcədə əsaslıdır?

DİM-in mətbuat xidmətinin rəhbəri Xanlar Xanlarzadə "Bakı-Xəbər"ə bildirdi ki, hələ imtahanların nəticələri açıqlanmayıb. Hazırda cavabların yoxlanıldığını deyən X.Xanlarzadənin sözlərinə görə, namizədlərin imtahanın məzmunu ilə bağlı iradları yersizdir. Onun qeyd etdiyinə görə, imtahanın məzmunu ilə bağlı namizədlərə əvvəlcədən məlumat verilib. O dedi ki, bütün bloklar üzrə hansı bacarıqların yoxlanılacağı, imtahanın strukturu və məzmunu DİM-in təqdim etdiyi linkdə öz əksini tapıb. "Oxuyub-anlama blokunda qeyd olunur ki, təqdim olunacaq mətnlərdən biri akademik məzmunlu elmi-kütləvi, digəri isə ictimai-informativ, publisistik və digər janrlarda olacaq. Bu imtahanda doktorant olacaq şəxslərin öz sahəsinə aid bilikləri deyil, xarici dil üzrə bilikləri yoxlanılır. Mətnlər akademik məzmunlu olmaqla istənilən sahəyə aid ola bilər. Bundan əlavə, həmişə olduğu kimi, hər bir imtahanda asan, orta və çətin hesab oluna biləcək tapşırıqlardan istifadə olunur. Həmçinin, 40 sualın cavablandırılması üçün ayrılan 90 dəqiqə hələ normadan bir qədər yüksəkdir, əlavə 60 dəqiqə isə essenin yazılmasına ayrılıb. Müsabiqə şərtləri barədə də məlumatlısınız. Hər bir blok üzrə balların minimum 20 faizini (10 baldan 2 bal, 15 baldan 3 bal), ümumilikdə, imtahandan isə azı 25 bal (50 %) toplamış namizədlər keçid balını toplamış hesab edilir. Hazırda namizədlərin esseləri yoxlanılır və nəticələr elan olunmayıb. İndidən imtahandan kimin keçib-keçməməsi barədə fikir yürütmək doğru deyil. Dinləmə ilə bağlı onu deyə bilərəm ki, mətni səsləndirən cihazlarda bir problem yoxdur, sadəcə, əcnəbi dili dinləyib-anlama sizdən xüsusi bacarıq tələb edir. Bunun üçün xüsusi vərdişləriniz olmalıdır. Bu bacarıqlar, vərdişlər insanlarda lazımi səviyyədə olmadıqda bəziləri haqsız olaraq günahı qurğuda, səsləndirmədə və digər səbəblərdə axtarmağa meylli olurlar".

*"İndidən imtahandan kimin keçib-keçməməsi barədə fikir yürütmək doğru deyil"*

X.Xanlarzadə, həmçinin, bildirdi ki, DİM-də Apelyasiya Komissiyası da yaradılıb və üç gün müddətində şikayəti olanlar ora müraciət ediblər: "Həmçinin, imtahanın keçirilməsi ilə əlaqədar DİM-də Apelyasiya Komissiyası yaradılıb.

Apelyasiya Komissiyasına bu günlər ərzində 42 müraciət daxil olub və hər kəsə müvafiq izahatlar verilib. Nəticələr elan edildikdən sonra da 3 gün ərzində namizədlər komissiyaya müraciət edə bilərlər. Burada hər kəs dinlənilir və hər məsələyə dair izahat verilir" - deyə bildirən X.Xanlarzadə dedi ki, imtahanın nəticələri elan edildikdən sonra da DİM-də Apelyasiya Komissiyası narazıların şikayətinə baxacaq.

***İradə SARIYEVA***




# Bakı sakini Güllü Hüseynova "Xalq Bank"ın Neftçilər filialı əməkdaşlarına ürək sözlərini "Bakı-Xəbər" vasitəsilə dedi

**Bakı şəhər, Yasamal rayon sakini Hüseynova Güllü Mirhəsən qızı redaksiyamıza göndərdiyi məktubda bütün redaksiya əməkdaşlarımızın ən aktual sosial-iqtisadi və siyasi məsələlərlə bağlı təhlil və xəbərlərini yüksək qiymətləndirir, daimi oxucumuz olduğunu bildirir.**

Hazırda təqaüddə olan keçmiş dövlət qulluqçusu xanım, eyni zamanda bütün bank işçilərinə, Mərkəzi Bankın prezidenti Elman Rüstəmov başda olmaqla, "Xalqbank"ın Neftçilər filialının direktoru R.M.Quliyev və onun bütün əməkdaşlarına təşəkkür edir. Xüsusi olaraq filialın şöbə rəisi Kəmalə xanım, Niyami müəllim, Fərid, Cəfər, Osmana nümunəvi işçilər olduqları, müştərilərlə yaxşı davrandıqları üçün minnətdarlıq edir.

№ 18 (4149) ■ Qiymәti: **40 qәpik**

# BAKI XӘBӘR

**1-3 FEVRAL 2020-ci il**

www.baki-xeber.com



## 02.02.2020 tarixindә nәlәr baş verәcәk? - Min ildәn bir baş verәcәk hadisәlәr...

**02.02.2020 - belә tarix min ildәn bir dәfә tәkrarlanır. "Milli.Az" xәbәr verir ki, münәccimlәrin sözlәrinә görә, bu tarixdә hәr bir qadın hәyatını yaxşılığa doğru dәyişә bilәr.**

Odur ki, hәyatınızdakı vacib dәyişikliklәrә hazır olun! 02.02.2020-ci il unikal qüvvәlәrin birlәşmәsidir. Bundan әlavә, Yupiter bu tarixin tәsirini güclәndirәcәk. Kişilәr üçün dә 02.02.2020-ci il tәsirlidir. Lakin gündәn düzgün istifadә etmәk şәrtdir. İndi demәk olar ki, hәr bir qadın yorğun, apatiya, enerji itkisi hiss edir. Çoxları xüsusi yuxular görür. Bu, әhәmiyyәtli tarixdәn әvvәl çevrilmә dövrüdür vә belә dә olmalıdır. Qorxmayın! Hәr şey yaxşılığa doğru dәyişәcәk. Bәs 02.02.2020-ci il niyә vacibdir? Bu, qadın enerjisinin yeni dövrüdür. Bir minillik boyu dünyada kişi enerjisi hökm sürürdü. İndi hәr şey dәyişir. Dünya yenidәn qadın yolunun iziylә gedir. Qadın enerjisi yumşaqdır vә rәqabәt әvәzinә balanslaşdırır. Daxili balansa nail olmaq üçün hәmin gün nә etmәliyik? Әn inanılmaz arzuların xәyallarını qurun vә gerçәklәşdiklәrini әtraflı şәkildә tәsәvvür edin. Bağışlayın vә incikliklәri göyә sovurun getsin. Özünüzә dәstәk olun. Sadә, amma sehrli sözlәri tez-tez tәkrarlayın - "Hamını vә özümü bağışlayıram. Bütün neqativlәri hәyatımdan çıxarıram. Xәyalım gerçәklәşsin!" Hәr bir qadın bütün hәyatını 100 000 000% yaxşılığa doğru dәyişә bilmәk iqtidarındadır. Bәs 02.02.2020-ci ildә nә etmәk olmaz? Digәr qadınlara hәsәd aparmaq vә onları lәnәtlәmәk. Dәstәk vermәk daha yaxşıdır. Yanından sadәcә susaraq keçә bilmәzsәn.

## Robotlar bu peşәlәri әlә keçirir - İşsizlik artacaq

**Ümumrusiya Elmi Araşdırmalar İnstitutunun mütәxәssislәri tezliklә robotların insanları әvәz edә bilәcәyi peşәlәri açıqlayıb.**



"Virtualaz.org" bildirir ki, mütәxәssislәrin rәyinә әsasәn, ilk növbәdә, robotlar sәnәdlәşdirmә vә xidmәt satışı ilә mәşğul olan bank, sığorta şirkәti, turizm agentliklәri әmәkdaşlarını әvәz edә bilәr. Artıq bu gün onlayn rejimdә bank hesabı açmaq, tәyyarә bileti almaq mümkündür. Robotlaşma, hәm dә informasiya daxil edilmәsi vә işlәnilmәsi ilә mәşğul olan administrator, kömәkçilәr, yoxlanış vә nәzarәt sahәlәrindә dә insan әmәyini sıxışdırıb çıxara bilәr. Belә ki, kassir, nәzarәtçi, satıcı vә mühafizәçilәrin funksiyaları artıq avtomatlaşdırılmış sistemlәr tәrәfindәn hәyata keçirilir. Lakin mütәxәssislәrin rәyinә әsasәn, bu sahәlәrin çalışanları işsiz qalmayacaq vә yalnız insanların öhdәsindәn gәlә bilәcәyi daha mürәkkәb peşәlәr yaranacaq.

## Bu xәstәlikdәn 200 milyon insan ölüb

**Tarix boyunca ölümcül viruslar, xәstәliklәr hәr zaman can almağa davam edib. "Milli.Az" xәbәr verir ki, keçmişdәn bu günә kimi yayılmış ölümcül viruslar bunlardır.**



İspaniya qripi - İspaniya qripi 1918-1920-ci illәr arasında N1H1 virusunun ölümcül alt qrupun yol açdığı qrip xәstәliyidir. İspaniya qripi 18 ay әrzindә 50 ilә 10 milyon insanın ölümünә sәbәb olan insanlıq tarixinin әn dәhşәtli xәstәliyi olub. Honq-Konq qripi - İlk dәfә Honq-Konqda yayılan bu qrip H3N3 virusu olaraq bilinir vә 1 milyon insanın ölümünә sәbәb olub. Fujian qripi-H3N2 virusu olub Honq-Konk qripi ilә oxşarlıq tәşkil edib. Lakin onun qәdәr ölümcül tәsiri olmayıb. Bu virusdan ABŞ-ın Texas ştatında 35 nәfәr hәyatını itirib. Üçüncü vәba xәstәliyi - Bu xәstәlik 1855-ci ildә Çinin Yunnan әyalәtindә meydana gәlәn böyük vәba xәstәliyi idi.

Bu vәbadan Hindistanda vә Çindә 12 milyon insan ölüb. Vә xәstәlik 1959-cu ilә qәdәr mövcud olub. Qara ölüm xәstәliyi - Qara ölüm xәstәliyi insanlıq tarixinin әn dağıdıcı xәstәliyi sayılır. Tәxmin edilir ki, 75-200 milyon arası insan ölüb. Bu xәstәliyi yaradan "Yersinia pestis" bakteriyası olub. Avropa nüfuzunun 60 faiz azalmasından vә dini, sosial iqtisadı çöküşlәrin sәbәbkarı da mәhz bu xәstәlik olub. Antonina plaque xәstәliyi - Yaxın Şәrqdәki üsyandan Romaya qayıdan birliklәr tәrәfindәn Roma imperatorluğuna yayılıb. Xәstәlik Roma imperatorunun vә bir çox önәmli dövlәt adamının ölümünә sәbәb olub. Xәstәlik hәmin dövrdә 5 milyon insanın hәyatına son qoyub. İtaliyan vәba - Şimali vә Orta İtaliyanı mәhv edәn xәstәlik olaraq tarixә düşüb. 1 milyon insanın yaşadığı ölkәdә әhalinin 25 faizi hәyatını itirib. Amerika vәba kralı xәstәliyi - Filadelfiyada yayılan vә 5 min insanın hәyatına son qoyan sarılıq xәstәliyidir. Qara ciyәri zәdәlәdiyi üçün xәstәliyә tutulan insan sarılıq keçirirmiş. Xәstәlik insanlara ağcaqanad vasitәsi ilә yoluxub.

**Elan**

Şәki rayonu, Baltalı kәnd sakini Azaqov Mәmmәdәmin İbrahim oğlunun vә ailә üzvlәrinin adına verilmiş JN: 330 saylı torpağa mülkiyyәt hüququna dair dövlәt aktı itdiyi üçün etibarsız sayılır.

Qubadov Elvin Rahib oğluna mәxsus şәxsiyyәt vәsiqәsi itdiyi üçün etibarsız sayılır.

Tağıyeva Lәtifә Mәrdәli qızının adına, Bakı şәhәri, Xәzәr rayonu, Şüvәlan әrazisindә yerlәşәn 97 a saylı bağa verilmiş müqavilә N20725 itdiyi üçün etibarsız sayılır.





**Qoç** - Tәxribatlara uymayın, yalanlara aldanmayın. Bәdxahlar sadәlövhlüyünüzdәn yararlana bilәrlәr. Manipulyasiyalar vә intriqalar toruna düşә bilәrsiniz. Hәr addımınızı yüz ölçüb bir biçin.



**Buğa** -İşdә hәmkarlarınızla çoxsaylı fikir ayrılıqları stress vә әsәbә sәbәb ola bilәr. Günün ikinci yarısında evlә bağlı problem sürәtlә hәllini tapacaq. Yaxınlarınızla asanlıqla dil tapın. Dәyәr verdiyiniz insanları sevindirmәyә tәlәsin.



**Әkizlәr** - Bir sıra problemlәri hәll etmәyә vә әvvәllәr hazırladığınız planları reallaşdırmağa imkan verәn gündür. Nәyi niyә etdiyinizi yaxşı anlayın ki, kobud sәhvlәrә yol vermәyәsiniz.



**Xәrçәng** - Günün ilk yarısında mühüm işә başlamayın. Bu dövrdә tәmәli qoyulan proseslәr sonradan qәnaәtbәxş nәticәlәr vermәyәcәk. Müttәfiq axtarışlarınız konkret nәticә vermәyәcәk.



**Şir** - Bilik, bacarıq vә tәcrübәnizdәn yararlanın. Bu gün әldә etdiyiniz yeni informasiya yaxın perspektivdә işlәrin sürәtlәndirilmәsinә әlavә tәkan verәcәk. Günün ikinci yarısında çalışdığınız insanlar arasında tam etibar edә bilәcәyiniz şәxsi müәyyәnlәşdirin.



**Qız** - Peşәkar fәaliyyәtinizlә bağlı planların hәyata keçirilmәsi üçün әlverişli zamandır. İş yerindә mühit әlverişlidir. Yeni işә sәrmayә yatırmaq, anlaşma, müqavilәnin imzalanması, danışıqlar üçün münasib zamandır.



**Tәrәzi** - İllüziyalardan qurtularaq real işlәrlә mәşğul olmağa başlayın. Verdiyiniz vәdlәri unutmayın. Ciddi mәqsәdlәri müәyyәnlәşdirәrәk prioritetlәrdә yerdәyişmәlәr edә bilәrsiniz.



**Әqrәb** - Günün ilk yarısı әlverişlidir. İşlәrdә böyük uğurlar әldә edә bilәrsiniz. İşgüzar danışıqlarda mövqelәrinizi qoruyun. Tәrәfdaşlar vә nüfuzlu insanlar ilk әvvәl sizinlә razılaşmasalar da, sonradan mövqeyinizi qәbul edәcәklәr.



**Oxatan** - Mürәkkәb, qarışıq gündür. Yaşanacaq olaylar sizә dәrs ola bilәr. Biznes layihәsinin reallaşdırılması üçün әlverişli gündür. Yeni planlar qurmaq, yaranmış situasiyanı dәqiq dәyәrlәndirmәk, rәqiblәrin sәhvlәrindәn yararlanmaq zamanıdır.



**Oğlaq** - Maliyyә itkilәri, uğursuz anlaşma, cәrimә tәhlükәsi var. Borc vermәk mәslәhәt deyil. Borc ala bilәrsiniz. Günün ikinci yarısında bütün uğursuzluq vә çәtinliklәri ürәyinizә salmayın.



**Dolça** - Başladığınız işlәri başa vurmağa çalışarkәn mühüm anlarla mәqamları nәzәrdәn qaçırmayın. Formalaşan şәrtlәrin diqtә etdiyi addımları atmazdan әvvәl düşünün.



**Balıqlar** - Yetәrincә çәtin gündür. Çox işlәmәli, yanlışlıqların fәsadlarını aradan qaldırmalı olacaqsınız. İşdә rәhbәrliklә fikir ayrılıqları, mübahisәlәr yaranacaq. Rütbәyә, vәzifәyә, tutduğu mövqeyә baxmadan insanları sәrt tәnqid etmәyin.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*



## İtin mәdәsindәn görün nә çıxdı

**İngiltәrәdә "Buzz" adlı it sahibinin bağçasında 215 әdәd daş udub.**

"Milli.Az" xәbәr verir ki, Laura Jenkins adlı qadın saxladığı itinin mәdәsinin sәrt olduğunu vә oradan sәslәr gәldiyini hiss edib. İtini dәrhal baytara aparan qadın gördüyü mәnzәrә qarşısında heyrәtlәnib. Rentgen görüntülәrindә itinin mәdәsindә bir qab daş olduğunu görüb. Baytarlar 4 saatlıq әmәliyyatla itin mәdәsindәn 215 әdәd daş çıxarıblar.

***Hazırladı: Ramil QULİYEV***

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qәzet hәftәdә 5 dәfә çıxır. (Bazar vә bazar ertәsindәn başqa). «BZ»-dә çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.